# Talıbovun oğlu 2 il ərzində ölkədən 300 milyon dollar çıxarıb


# Hürriyyət

SİZİN ÜÇÜN QƏZET

№44 (3335) 26 Noyabr / 2024-cü il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qəpik


**ANA XƏBƏR**



## Müdafiə Nazirliyinin sabiq xidmət rəisinə ağır cəza verildi

# Hərbi ekspert Ədalət Verdiyev həbs edildi

O, dövlət sirrini yaymaqda və vəzifə səlahiyyətlərindən sui-istifadə etməkdə ittiham olunur




**GÜNÜN NƏBZİ**

LAYİHƏ

## "Tanrıdan Xəzər boyda "hədiyyəmiz" var, lakin..."



Ekoloq: "Bakı və Sumqayıt əhalisinin müəyyən hissəsi regionlara yerləşdirilməlidir"

11

LAYİHƏ

## GOP 29 Azərbaycana nə verdi və gözləntilərimiz nələrdir?

Bu tədbirin yüksək səviyyədə baş tutması ölkəmizin beynəlxalq səviyyəli oyunçuya çevrilməsinin bariz nümunəsidir

5

Baxış

## Fars şovinisti səlib dünyasından min qat məkrli və təhlükəlidir

Onlar üçün şiəlik, ümumiyyətlə din, bəd niyyətini ört-basdır eləmək üçün gözəl şirmadır...

6

Cəmiyyət

## Qarabağ qazisindən Birinci vitse-prezidentə şok müraciət

"Cəbhənin o tərəfindəki düşməni məhv etsək də, Bakıdakı düşmənlərimizə əsir düşdük"

12

Toplum

## Hakim Şəhriyar Əliyevdən absurd qərardad

"Elektron imza"lı iddia "imzalanmadığından" geri qaytarılıb

15

HÜQUQ

## İcra başçısı məhkəmə sədrinin toxunulmazlıq hüququna "şərik çıxıb"



8-9

Şəhid

## Şərəfli tariximizin qəhrəman oğlu



Şəhid Fariz Zülfüqarzadənin ad günü qeyd olundu

10

Şikayət

## Bir qrup səhmdara qarşı dələduzluq

"Bakı Tikinti Quraşdırma" ASC-nin səhmdarları rəhbərliyin qanunsuz əməllərindən şikayətçidir

"Bakı Tikinti Quraşdırma" ASC-nin bir qrup səhmdarı - Səfixanov İsrafil Əlipaşa oğlu, Zərbəliyev Fuad İbrahim oğlu, Həsənov Nöfəl Qurban oğlu, Süleymanov Rövşən Süleyman oğlu, Əliyev Yaşar Saşa oğlu, Sadıqov Rəhim Nəsif oğlu, Abbasov Tofiq Əhməd oğlu, Morozov Timofey Vasilyeviç, Şahmaliyev Mahir Fevral oğlu, Bağırov Rəsul Bağır oğlu və Hüseynov Mammed İsrafil oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub...

7

Sərbəst

## Yenə də ümumtürk ədəbi dilimiz haqqında

Tarix üzrə fəlsəfə doktoru Hacı Nərimanoğlunun mətbuatda dərc olunan "Türk dili və əlifbası Türk Dövlətləri Birliyinin ortaq dili, əlifbası olaraq qəbul edilməlidir", başlıqlı məqaləsi məni bir daha ümumtürk ədəbi dilinin yaradılmasının zəruriliyi, onun hansı əsaslar və qaydada formalaşdırılması məsələsinə qayıdaraq, adıçəkilən məqalədə irəli sürülən fikirlərə münasibəti bildirməyimi zəruri etdi. Müəllif bu məsələnin həll edilməsi haqqında hökm formasında başlıqda ifadə edilmiş fikrinin səbəbini qısa izah etdikdən sonra, bu variantın qəbul edilməsini zəruri səbəblər qismində müxtəlif amilləri sadalayaraq fikrini əsaslandırmağa çalışır.

13

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№44 (3335) 26 Noyabr / 2024-cü il Həftədə 1 dəfə çıxır Qiyməti: 60 qəpik


# "Narkotik göydən düşmür, onu ölkəmizə gətirirlər..."

## Nəzakət Məmmədova: "...Bunlar millətin axırına çıxmaq istəyən insanlardır"

### "Narkotik qatı düşmənimizin əliylə torpağımıza girir"

**"Mən belə düşünürəm ki, ailədə uşağa verilən tərbiyə onun bazasında toplanır. Uşaq həmin tərbiyəni məktəbə, cəmiyyətə ötürür". Bunu tanınmış şairə-publisist Nəzakət Məmmədova bildirib. Onun fikrincə, narkotikə və digər asılılığa meyl edən gənclərin bir çoxu uşaqlıqda düzgün tərbiyə almayanlardır: "Mən deyərdim ki, hər şey ailədən başlayır. Bir rəssam şəkil çəkib0, onun əlindən şəkilini alıb cırsan və yaxud ləkələsən, əlbəttə, ona çox pis təsir edər. Çünki bunu o yaradıb. Biz analar da Allahdan sonra ikinci yaradanlarıq. Biz yaratdığımız övladın üstündə əsməliyik. Yoxsa uşaq getdi kiməsə qoşuldu, pis yola düşdü, nə bilim nə... Mən belə şeylərin əleyhinəyəm. Düşünürəm ki, ailədən, ibtidaidən uşağa verilən tərbiyədə nə varsa, bu, onun bazasında toplanır. Uşaq o bazanı məktəbə, cəmiyyətə ötürür. Əgər o baza mükəmməldirsə, deməli, həmin insan cəmiyyətə yararlı birisi olacaq".**



N.Məmmədova deyir ki, hər bir valideyn övladları ilə dost olmağı bacarmalıdır: "Mən həmişə övladlarıma da, gəlinlərimə də deyirəm ki, uşaqlarınızla dost olun, onlarla dost kimi davranın, belə etsəniz, bu tək sizin üçün deyil, həm də cəmiyyət üçün xeyirli olacaq. Bu günün övladı sabahın əsgəri, dəyərli vətən oğludur. Valideyn uşaqları ilə elə ünsiyyət qurmalıdır ki, övladı ona yaxşını da, pisi də danışa bilsin. Uşaqları tam sərbəst qoymaq olmaz. Uşaq valideynini birinci dostu bilməlidir".

Nəzakət xanım bu fikirdədir ki, valideynlər övladlarının maarifləndirilməsini məktəbin, cəmiyyətin üzərinə atmamalıdır: "Mən düşünürəm ki, ailələr bu işin üstündə əsməlidirlər. Onlar bəzən bu işləri məktəbin, universitetin, cəmiyyətin üstünə atır. Bunun mən tam əleyhinəyəm. Biz ailələrimizi də maarifləndirməliyik. Maarifləndirmə güclü olmalıdır. Bu da var. Amma boşluq yenə də ailədən gəlir. Qadınlarımıza üzümü tutub deyirəm ki, əl-ələ verək, övladlarımızı qoruyaq".

Nəzakət Məmmədovanın fikrincə, ölkəmizə narkotik vasitələri gətirənlər millətimizin axırına çıxmaq istəyən, gəncliyimizi məhv etməyən çalışan insanlardır: "Narkomaniya ölkəmizdə necə yayılır? Bəllidir ki, narkotik maddələr torpağımıza qatı düşmənimizin əliylə girir. Mən inanmıram ki, xalqını, millətini sevən adam pul qazanmağın yolunu burda görsün. Beləsi varsa, deməli, o, heç ailəsini də sevmir. Çünki narkotik göydən düşmür, onu bura hansısa yollarla gətirib çıxarırlar. Deməli, bunlar bu millətin axırına çıxmaq istəyən, milləti xəstə, zəlil etmək istəyən insanlardır.

Narkotikə aludə olan insandan nə gələcək gözləmək olar?! Onun gələcəkdə ailəsi də normal olmayacaq. Bu adamlar nə ailəyə, nə də cəmiyyətə yararlı olacaq. Narkotik istifadə edən heç ailəsini də tanımır. Bütün bunları düşünəndə fikirləşirsən ki, burda düşmən əli var.

Hərdən qısa roliklər gedir. Doğulmamış uşaq göstərirlər ki, "mən doğulsaydım, sizin övladınız olacaqdım, sən narkotikə aludə oldun, mən də doğulmadım". Birin də göstərirlər ki, ana qapını oğluna tam açmır, arada zəncir var, oğlu o zəncirdən əlini salıb, ananın sinəsindən sepini aparır. Bundan faciəli nə ola bilər? Görün, narkotik insanları hara qədər alçaldır, rəzil edir!

Ümumiyyətlə, təbliğatımız güclü olmalıdır. Deyirlər ki, bu adamlarla psixoloqlar işləməlidir. Yox, mən deyirəm ki, gəlin, bu işləri televiziyanın, radionun, mətbuatın üzərinə ataq. Tək evin içi deyil. Biz istəyirik ki, qonşu da yaxşı təhsil alsın, düz yolda olsun. Ətrafa da nəzər yetirməliyik. Mən belə düşünürəm. Bu, dinimizdə də var. Əsl müsəlman nə əliylə, nə də diliylə heç kəsi incitməyən kəsdir. Bir-birimizə dəstək olaq, bir-birimizə kömək olaq.

Bu işdə bizə idealogiya da lazımdır. Bir də görürsən ki, hansısa filmin ortasında bir reklam gedir. Həmin reklamların yerində narkotiklə, "ağ ölüm"lə bağlı roliklər göstərilsə, çox maraqlı olar. İnsan, o uşaq baxır da ona. Mütləq şəkildə yaxşını, pisi seçəcək".

N.Məmmədova hesab edir ki, zərərli vərdişlərlə bağlı təbliğat orta məktəb dərsliklərində də yer almalıdır: "Deyirlər ki, məktəblərdə psixoloqlar var. Amma hər məktəbə bir psixoloq güclə düşür. Dərslik kimi olsa, o dərsliklərin bir bölməsində versələr ki, bunlar zərərli vərdişlərdi, insanı insanlıqdan çıxarır, sən təcrid olunmuş adama çevirilirsən və s. bunu uşaqların beynınə yeritmək olar. Zərərli vərdişlərə bağlı təbliğat dərsliklərdə mütləq şəkildə yer almalıdır".

**Söhbətləşdi: Fuad BİLƏSUVARLI**

## Əyləncə səhifəsi

# Qarabağ qazisindən şok açıqlama

## "Narkotik almaq üçün medallarımı satmaq istədim..."

### "Ağır narkotiklə hərbi xidmətdə olduğum zaman tanış oldum"



**Emin Bakının "Sovetski" məhəlləsində yaşayıb. Hazırda 26 yaşı var. 8 il ağır narkotik istifadə edib. Artıq 6-cı aydır ki, "ayıq"dır. "Stop narkotik"ə həyatını danışan Emin bildirir ki, 16 yaşından yüngül narkotik istifadə etməyə başlayıb. Ağır narkotiklə isə əsgərlikdə "tanış olub".**

Dediyinə görə, uşaqlıqdan nevroloji travmaları olduğuna görə, öncə hərbi xidmətdən azad olunub. Lakin yaşadığı mühitdən bir müddət aralı qalması üçün könüllü olaraq əsgərliyə getməyi qarşısına məqsəd qoyub. Səhhətindəki problemə baxmayaraq, onun müraciətinə "yox" deyilməyib. Lakin narkotikdən "qaçmaq" üçün hərbi xidmətə getsə də, bu pis vərdişindən burada da əl çəkə bilməyib. Əksinə, əsgərlikdə olduğu müddətdə daha ağır narkotiklərdən istifadə etməyə başlayıb.

2018-ci ildə hərbi xidmətdən qayıdan həmsöhbətimizin sözlərinə görə, bundan sonra bir müddət ağır narkotiki dərmanlarla əvəzləyib.

2020-ci ildə İkinci Qarabağ Müharibəsi başlayanda könüllü olaraq savaşa gedib. 44 günlük müharibədə sonadək iştirak edən Emin, bu müddət ərzində yenə də narkotik istifadə etməyə başlayıb. Deyir ki, müharibədən döndükdən sonra savaşda aldığı travmalar səbəbindən, yenidən ağır narkotiklər istifadə edib. Savaşdan qayıtdıqdan təxminən, 5-6 ay sonra ailəsi narkotik istifadə etdiyini bilib. Bundan sonra müalicə olunması üçün dəfələrlə narkoloji dispanserə yatırılsa da, hər dəfə cəmi 2-3 gün qalıb və bir yolunu taparaq qaçmağı bacarıb. Müharibədə göstərdiyi şücaəti ilə əlaqədar 5 medalla təltif olunan Emin bildirir ki, narkotik almaq üçün dəfələrlə həmin medalları satmaq fikrinə düşsə də, valideynləri gizlətdiyi üçün onları tapa bilməyib. O, danışır ki, narkotik almaq üçün dəfələrlə oğurluğa da əl atıb. Hətta, bu səbəbdən polis tərəfindən saxlanılıb da. Lakin ailəsi onu həbsdən xilas etməyi bacarıb. Daha sonra ailəsini tərk edərək tanıdığı narkomanlarla birgə küçə həyatı yaşayıb, parklarda, binaların zirzəmilərində gecələməyə başlayıb. Emin bu müddət ərzində "cəhənnəmi yaşadığını" bildirir. "Mən ilk dəfə narkotik istifadə edərkən bilmirdim ki, bunları yaşayacam, belə fəsadları olacaq", - deyən müsahibimiz hazırda "Sağlam yaşa" Reabilitasiya Mərkəzində müalicəsini davam etdirir və narkotikə meyl edən yeniyetmə və gənclərimizi bu bəladan uzaq durmağa çağırır.


**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

HR Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.



Eldəniz QULİYEV

# Zəhərli toxum

**Bu toxumu kimlər səpdi, İlahi? Bu sayaq cırlıq, bu qədər düşüklük, bunca şərəfsizlik nədən baş qaldırdı?.. Biri dəyyusluğu, biri işverənliyi ilə fəxr edir, digəri harınlığı, qudurğanlığı ilə öyünür!..**

**Aman, kimlər elədi bunu, nədən, nə səbəbə elədilər?.. Məgər anlamırdılarmı, bu toxum zəhərlidir və nəhayətdə cücərib-boy atıb möhtəşəm bir millətin qan nizamına hopacaq, ləyaqətinə, qüruruna, heysiyyətinə qənim kəsiləcək?! Necə qıydılar axı bu millətə?..**

* * *

...Budur, birisi beş-on manatın xətrinə günahsız insanın üzünə durur və dərk eləmir ki, işverənliklə başqa "verənlik" eyni şeydi... "Siyasi pişiklənmə" musiqisiylə oriental rəqs eləyən digər bir yekəbaş isə vətənini, xalqını öz varlığından artıq sevən ləyaqətli insanları hədəf alır, - şər-şəbədələr qoşur, həyaabır bilmədən, təmiz insanlara çamur atır, həbs etdirir və: "-Bizim hakimiyyətin analoqu yoxdu, dünya bizə paxıllıq edir, müxalifət nankordu, satqındı, erməni dəyirmanına su tökür, əhali naşükürdü, şadlığına şitlik edir və s.və i. a..."- deyir.

Deyir və bircə çimdik də vicdan əzabı çəkmədən, özü kimi yaltaq və nadürüstlərə qoşulur... Sonra da, p...xun yemiş xoruz kimi yastl-yastı yeriyib avtobusa minir - "HEÇ HARA" marşrutu ilə işləyən "avtobus müxalifəti" avtobusuna!..

İri buynuzları ilə fəxr edən, - üzr istəyirəm - oğraşlığından ləzzət alan vəzifəli dəyyuslardan biri də qayıdıb: "- Bu millətin anasını ağlatmaq, gözünün odunu almaq, bir qarın çörəyə möhtac qoymaq, çullayıb minmək, lazımdı ki...qudurmasınlar!" - deyir.

Oğru, cinayətkar, korrupsioner və siçan-mişovul kimi Dövlətin bünövrəsini gəmirən digər bicbala bir məmur isə: "-Biz, mütləq İşıq gələn bütün dəlmə-deşiklərə pambıq tıxamalıylq. Xox gəlib xof yaratmalıyıq. Təkəm-seyrək ayıq və ağıllı adamların qulağından tutub ya türmələrə, ya da dəlixanalara atmalıyıq! Bu vasitələr kömək etməsə, Hindistandan doxsan doqquz vaqon fil qulağı alıb gətirməli və o qulaqardan rahat yataq dəstləri düzəltdirməliyik ki, millətin gözüaçıq kəsimi şellənib yatsın, kefimizə-zadımıza soğan doğramasın!" - deyir.

Dərrakəsi və intellekti ən çoxu, yarımca naxır dananı saymağa çatan (bəlkə də, heç ona da çatmayan!) özgə birləri, əks mövqe sərgiləyən azad fikir sahiblərini öz haram yaşayışlarına ciddi təhlükə kimi görür və nəyin bahasına olursa-olsun, onları sındırmaq, qorxutmaq - zərərsizləşdirmək istəyirlər... Zərərləşdirirlər də!..

Bütün bu "marallar" hələ iqtidarın ikinci eşalonu sayılır; yəni "araz aşığımnan, kür topuğumnandı" deyənlərdi. Sədd heyif ki, bunların arasında, özlərini müxalifət adlandıranlar, - yəni gündəmdə qalmaq üçün gündəyməzə üstünlük verənlər də az deyillər...

İndi özünüz qiymətləndirin: iqtidarın ikinci eşalonu bu gündədirsə, onda görün, bədbəxtlərin birinci eşalonu nə haldadır?..

Anan ölsün, Azərbaycan!

... Bu zəhərli toxumu kim səpdi, nə vaxt səpdi, niyə səpdi, İlahi?!

Bu toxumdan cücərənlər nədən bunca daşürəkli, amansız, bunca vicdansız, düşük, saxtakar, nadürüst oldular?..

* * *

Yazıdakı kobud ifadələrə görə üzr istəyirəm, sadəcə, bəzi məsələlərdə etikanı gözləmək, həqiqətən çətin olur...

Bəli, indi onlar at oynadırlar, "bro-bro" deyirlər, cəzasızlıq şəraitində kefdə-damaqdadırlar... Amma bu, HƏLƏ belədir, nə vaxtsa çərxi-fələyin tərsinə dövran elədiyi bir gün də gələcək və onda bu adamlar timsah göz yaşları axıdacaqlar, yalvarıb-yaxaracaq: "-Bizi bağışlayın" - deyəcəklər, - "nadan olmuşuq, qanmaz olmuşuq, danabaş olmuşuq", - deyəcəklər...

Tutaq ki, bizim də humanizm damarımız tutacaq və rəhmə gəlib belələrini əfv edəcəyik, - noolsun?..

Bundan sonra onları bağışlamağın bir əhəmiyyəti-filanı varmı?... Bir də, biz nəkarəyik ki, kimlərisə bağışlayaq, ya bağışlamayaq?..

Şəxsən mən öz adımdan, belə nanəciblərə üz tutub deyirəm:

- Ay dili qafillər, ay bədbəxt uşağı, ay qurumsaqlar! Bu dünya cəmi-cümlətani beş günlükdür, beşi də iş gününə düşür; ayılın qəflət yuxusundan, insan olun, - hər kəsin, hər adamın ali məqsədi İNSAN olmaq deyilmi?!.. Anlayın, dərk edin, qanın, insan kimi düşünün və nəhayət öz-özünüzə sual verin ki, "Görəsən, etdiyimiz bütün bu pisliklərə, oğurluqlara, bəd əməllərə, xirtdəyəcən batdığımız günah və suçlara görə, Uca Yaradan bizi bağışlayacaqmı?.."

# Hərbi ekspert Ədalət Verdiyev həbs edildi

## O, dövlət sirrini yaymaqda və vəzifə səlahiyyətlərindən sui-istifadə etməkdə ittiham olunur



**Prokurorluq orqanları tərəfindən digər hüquq-mühafizə orqanları ilə birgə dövlət sirri təşkil edən məlumatların, habelə paylaşılması qanunvericiliklə qadağan edilən informasiyaların media subyektləri və internet resurslarında yayılması hallarına qarşı mütəmadi olaraq tədbirlər görülür.**

Hurriyyet.az xəbər verir ki, bu barədə Baş Prokurorluğun Mətbuat xidməti məlumat yayıb.

Bu tədbirlərin davamı kimi, media subyektləri və internet resurslarında aparılan monitorinq zamanı cari il noyabrın 22-də Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "İctimai Səhiyyə və İslahatlar Mərkəzi" Publik Hüquqi Şəxsin mülki müdafiə qərargahının rəisi vəzifəsində işləyən, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində ixtisaslı zabit kimi hərbi xidmət keçmiş xüsusi səlahiyyət üzrə hərbi-ekspert Ədalət Verdiyev tərəfindən dövlət təhlükəsizliyini və müdafiə qabiliyyətini təmin edən mənafelərə ağır nəticələrə səbəb olan mühüm zərər vurulması müəyyən olunub.

Fakta görə cinayət işi başlanaraq ibtidai istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə edilib.

İstintaqla, işğaldan azad olunmuş ərazilərə noyabrın 22-də təşkil olunmuş mediaturda hərbi-ekspert qismində iştirak etmiş Ədalət Verdiyevin Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin döyüş məntəqələrinin yerləşdiyi yüksəklikləri, sərhəd qoşunlarının dislokasiyası yerlərini, koordinatlarını və əməliyyat şəraitini nümayiş etdirib şərhlər verməklə videoçəkiliş apardıqdan sonra həmin videonu özünə məxsus sosial şəbəkə hesabı vasitəsilə qeyri-məhdud sayda izləyicilərin baxa biləcəyi səviyyədə yaymasına, yəni öz qulluq səlahiyyətlərindən istifadə etməklə Azərbaycan Respublikasının qanunla qorunan dövlət təhlükəsizliyini və müdafiə qabiliyyətini təmin edən mənafelərinə ağır nəticələrə səbəb olan mühüm zərər vurmasına əsaslı şübhələr müəyyən edilib.

Toplanmış sübutlar əsasında Ədalət Verdiyev Cinayət Məcəlləsinin 284.1 (dövlət sirrini yayma) və 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında Binəqədi rayon məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Cinayət işi üzrə iş üzrə ibtidai istintaq davam etdirilir, iş üzrə təqsiri müəyyən edilmiş şəxslərin məsuliyyətə cəlb edilməsi və ictimaiyyətə əlavə məlumatın verilməsi təmin olunacaqdır.

**KƏNAN**

# Müdafiə Nazirliyinin sabiq xidmət rəisinə 10 il 6 ay həbs cəzası verildi

**Müdafiə Nazirliyinin tabeliyində olan Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin Maliyyə Xidməti rəisi polkovnik-leytenant Rəşad Məlikzadənin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

Bakı Hərbi Məhkəməsində hakim Rafiq Abbasovun sədrliyi ilə keçirilən prosesdə Rəşad Məlikzadə son söz deyərək ədalətli qərar çıxarılmasını xahiş edib.

Məhkəmədə hökm oxunub. Hökmə əsasən, Rəşad Məlikzadə 10 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. O, cəzasını ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkəcək.



Həmçinin hökmdə qeyd edilib ki, dövlətə vurulmuş ziyanla bağlı Rəşad Məlikzadənin özünə və ailə üzvlərinə məxsus təxminən 2 milyon manatlıq əmlakı müsadirə edilib.

Qeyd edək ki, Rəşad Məlikzadə 26 sentyabr 2022-ci il tarixdə DTX tərəfindən saxlanılmış və barəsində Bakı Hərbi məhkəməsi tərəfindən həbs qətimkan tədbiri seçilib.

Rəşad Məlikzadə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 179.4-cü (xüsusilə külli miqdarda mənimsəmə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham olunur.

İttihama görə, Rəşad Məlikzadə 2017-2018-ci illərdə "N" saylı hərbi hissədə maliyyə xidmətinin rəisi, 2018-2022-ci ilin fevralın 10-dək olan müddətdə isə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin Maliyyə Xidmətinin rəisi vəzifəsində işləyib. Rəşad Məlikzadə vəzifə saxtakarlığına yol verib. O, 9 milyon 369 min manat mənimsəyib, bu məbləğdən 848 min manatını dövlət büdcəsinə ödəyib.

İş üzrə Maliyyə Nazirliyi zərərçəkmiş qismində tanınıb.

Deyirlər, zalımın sonu çatanda zülmü çoxalar. Başının üstünü "qara buludlar"ın aldığı Rusiyanı əhatələyən çəmbər daraldıqca, Kreml daha da azğınlaşıb. İndi o nəinki Ukraynaya, hətta dünyaya hədə-qorxu gəlir. Bu dəfə isə təhdid silahı nüvə doktrinasının dəyişdirilməsi, yəni bunun nüvə silahından istifdə edilə biləcəyi anlamına gəlməsi oldu. Dünyanın demək olar ki, hər yerində Putinin Ukraynaya nüvə silahı atmaq riskini gözə alıb-almayacağı müzakirə olunur.



# Nüvə müharibəsinin bir addımlığında

## Putinin "Rusiya olmayacaqsa, dünya niyə sağ qalmalıdır?!" məntiqi onun geri çəkilməyəcəyini deməyə əsas verir

Rusiyanın kürkünə birə salan digər məsələ isə 26 oktyabrda Gürcüstandakı parlament seçkilərindən sonra əhalinin nəticələrə etiraz etməsi, meydanlardan geri çəkilməməsi fonunda Abxaziyada Rusiyaya qarşı etirazlar, vəziyyətin idarə edilə bilməməsi və s. gedişatdır.

Rusiyanın çöküşünü biruzə verən iki əlamətdən birinə-Abxaziya məsələsinə toxunaq. Bildiyimiz kimi, qondarma Abxaziya respublikasındakı çaxnaşmaların nəticəsində 2024-cü il noyabrın 19-da respublikanın rəhbəri Aslan Bjaniya istefa verdi. Etirazlara rəsmi səbəb kimi isə Rusiya Federasiyasından olan şirkətlərə Abxaziyada əhəmiyyətli vergi güzəştləri ilə investisiya layihələri həyata keçirməyə imkan verən investisiya sazişi irəli sürüldü. Abxaz müxalifəti bu sazişin yerli sahibkarlar üçün fəlakətli iqtisadiyyat vəd etdiyini elan etdi, tərəfdarlarını hökumət binalarına hücuma səslədi, parlament ələ keçirildi. Aslan Bjaniya öz kəndinə qaçdı, onu yerini müvəqqəti olaraq Badra Qunba tutdu.

Qunba administrasiyası dərhal Rusiya ilə investisiya sazişinin ratifikasiyası ilə bağlı mübahisəli qanun layihəsinin geri götürüləcəyini bəyan etdi. Amma digər maraqlı məqam - müxalifət lideri Adqur Adzinba Rusiyanın "Vedomosti" qəzetinə müsahibəsində bildirdi ki, "etirazlar Kremlə qarşı yönəlməyib". Onun sözlərinə görə, "turizm bazarında Rusiya şirkətlərinə imtiyazlar verən investisiya sazişinin şərtləri müxalifəti qane etməyib". Məsələn, sənəddə yerli əhalinin iş yerlərini əlindən alacaq əcnəbilərin işə götürülməsinin mümkünlüyü haqqında bənd var və investor çoxillik vergi tətillərindən azad ola bilər. Adzinba vurğulayıb ki, bu, yerli əhali üçün həssas məsələdir, çünki respublikadakı kiçik və orta müəssisələrin 70%-i turizmdən gəlir əldə edir. Onun sözlərinə görə, Rusiya Abxaziya üçün əsas investisiya donoru olaraq qalacaq, lakin yerli məmurlarla rus biznesi arasında korrupsiya əlaqələrini kəsmək lazımdır.

Gətirilən əsaslandırmaya baxmayaraq, ortaya haqlı bir sual çıxır ki, Rusiya Abxaziya üçün əsas investisiya donoru olaraq qalacaqsa, rus biznesi də ilk növbədə ən azı Rusiya mənşəlidirsə, rus üsul-idarəçiliyinin ruhunun da korrupsiyadan ilham aldığı məlumdursa, yerli məmurlarla rus biznesinin arasında korrupsiya əlaqələrinin narahatçılıq verməsi ağlabatan deyil. Faktiki olaraq, Adqur Adzinbanın "etirazlar Kremlə qarşı yönəlməyib" ifadəsi kifayət qədər suallara əsas verir. Məlumdur ki, himayədarı Rusiya və "atası" Bidzina İvanişvili olan "Gürcü arzusu"nun Kremllə xoş münasibətlərdən faydalanıb, Rusiyaya qarşı sanksiyalara qoşulmayaraq parlament seçkilərində xal və səs qazanmaq üçün istifadə etdiyi Cənubi Osetiya və Abxaziyanı yenidən Gürcüstanın tərkibinə qaytara biləcəkləri anonsu partiyanı reytinqlə hakimiyyəti əlində saxlamağa rəvac verdi. Üstəlik, işin içində Rusiyanın Sevastopoldakı hərbi dəniz bazasını Abxaziyadakı Oçamçira bölgəsinə köçürmək məsələsi də gündəmdədir. Onsuz da "Gürcü arzusu" Rusiyanın ölkəni Gürcüstanı öz təsir dairəsində saxlaması üçün istifadə etdiyi rıçaqdır.

Təbii ki, Ukrayna ilə müharibənin maliyyə və silah imkanlarını tükəndirdiyi Kreml üstündən ona yük olmuş Cənubi Osetiya və Abxaziyanın maliyyə ağırlığından canını qurtarmağın bir yolunu axtarır. Gürcüstanda parlament seçkiləri ərəfəsində Bidzina İvanişvilinin anonsunu verdiyi ərazi bütövlüyünün bərpası ehtimalı və Lavrovun tərəddüdlü təkzibi də bu ehtimalın bir xəbərçisi idi. Amma, əlbəttə ki, Moskvanın maraqlarının nəzərə alınmasıyla. Yəni Oçamçiraya hərbi dəniz bazasının köçürülməsinə maneçilik yaratmamaqla.

Adqur Adzinba 2015-ci ildən özünü Abxaziya adlandıran "ölkə"nin iqtisadiyyat naziri, 2019-cu ildə isə baş nazirin müavini olub. 2020-ci ildə o, "Abxaziya Xalq Hərəkatı" ictimai təşkilatını yaradıb və ikinci yeri tutaraq prezidentliyə namizəd olub. O vaxtdan indiki hakimiyyətə "müxalifətdədir", daha doğrusu gözlənilməz situasiyalar üçün nəzərdə tutulmuş ehtiyat variantdır ki, elə o, əhaliyə "Rusiyanın iri bizneslərini regiona buraxmayacağına söz verib", amma etirazların da Kremlə qarşı yönəlmədiyini bildirir.

"Kavkazskiy uzel" nəşrinin baş redaktoru Qriqori Şvedovun sözlərinə görə, Moskva Abxaziyada təsir rıçaqlarını itirir. Ekspert eyni zamanda vurğulayır ki, saziş artıq Moskvada imzalanıb, ona görə də Rusiya tərəfi onun mövcudluğunu dayandırmağa imkan verməyəcək. Krasnodar diyarının keçmiş qubernatoru Aleksandr Tkaçov bu bölgəyə maraq göstərir - o, Pitsunda sahilində beşulduzlu "Moskva Resort" otelinin tikintisinə 20 milyard rubl sərmayə qoyacağını vəd edib. Şvedov vurğulayır ki, Rusiya Federasiyası ilə investisiya sazişi ilə bağlı kütləvi etirazlar son illərdə yaranan münaqişənin yalnız pik nöqtəsidir. Ekspert 2023-cü ildə Pitsundadakı Xruşşov daçasının guya təmir üçün Rusiya Federasiyasının mülkiyyətinə verilməsini misal çəkir. Abxaziya Xarici İşlər Nazirliyinin məlumatına görə, 2008-ci ildən bəri Moskva özünü elan etmiş respublikaya 110 milyard rubla yaxın vəsait göndərib. Bu məbləğin təxminən 30 milyard rublu büdcə investisiyaları, 40 milyardı əmək haqqı, 40 milyardı isə pensiya ödənişləridir.

Belə görünür ki, Rusiyanın Abxaziyada kifayət qədər geniş olan hərbi və iqtisadi maraqları təmin ediləcək, amma burada Abxaziyadakı prosesi həm Rusiyanın siyası asılılığından qurtulmaq kimi qələmə verməklə, həm siyasi meydanda aktivləşən müxalifət lideri Adqur Adzinbanın əvvəlki "prezident"dən yorulan əhalinin ixtiyarına təqdim etməklə və Adzinbanın da Kremlin marağı dairəsində manevr edəcəyi anlaşması ilə həm abxazlara Bjaniyanı qurban verərək yeni "təravətli" siyasi lider verəcək, həm bu liderin onun öz maraqları çərçivəsində gedişlərinin zəmanətini alacaq, həm üzüsulu Cənubi Osetiya ilə Abxaziyanı Gürcüstana qaytaracaq, həm onların yükünü üstündən ataraq eyni zamanda iqtisadi-hərbi maraqlarını qoruyacaq. Bütün olanlarla bərabər Bidzina İvanişviliyə də xal qazandıraraq "Gürcü arzusu"nun gürcülərin gözündə "bütövlədirici, birləşdirici" faktor imici qazanmasına vəsilə olacaq, beləliklə də hazırkı hökuməti əhalinin gözündə hörmətə mindirəcək.

Əlbəttə, Rusiya bunlarla bərabər Gürcüstanda mövcudluğunu davam etdirəcək. Başqa sözlə, Abxaziya ilə Cənubi Osetiyanı verib, Gürcüstanı tam alacaq. Necə ki, Azərbaycanda bəzi siyasətçilərin dilində Moskvanın 44 günlük müharibə gedişatında Azərbaycanın müharibə başlatmasına göz yumub Qarabağı verməklə Azərbaycanı tam olaraq nüfuz dairəsinə aldığı və ölkəmizdə siyasi cəhətdən daha da gücləndiyi səsləndirilir. Amma ümidvarıq ki, Rusiyanın planlaşdırdıqlarından asılı olmayaraq, onun son nəfəsi gəlir, özü bunun fərqindədir, necə deyərlər, "bu xına o xınadan deyil".

Gələk Rusiyanın məğlubiyyətinin gəlhəgəlinə. Qərb ekspertləri deyirlər ki, Putin Rusiyasə artıq müharibəni uduzub. Eləcə də bəzi rus jurnalistləri və ekspertləri Rusiyanın məğlubiyyətə doğru yuvarlandığı haqda xəbərləri paylaşmaqdan çəkinmirlər. Rusiyanın rəsmi müharibə müxbiri Yevgeni Lisitsin bu yaxınlarda "Rusiya cəbhəyə nəzarət etmir" demişdi. Dumanın deputatı və məhbus şovinist İqor Qirkinin dostu Yuri Deviç "indi düşmənin Rusiyanın böyük şəhərini ələ keçirməsi ehtimalı yüksəkdir" deyib. Eyni ruhda Dumanın Müdafiə Komitəsinin sədri Andrey Kartapolov "Rusiya üçün qara günlərin başladığını" bəyan edib. Sözü daha çılpaqlığı ilə deyən inadkar şərhçi Sergey Mardan isə, "Yalan danışmağı dayandırın, qələbə göz önündə deyil", deyə etiraz səsini ucaldıb. Bu arada, Dumada Vladimir Putinin Oleq Matveyeviç adlı sadiq müttəfiqi oktyabrın 29-da bəyan etmişdi ki, "Ukrayna anlayışı mövcud olmamalıdır", amma o var və nəticədə "hamımız üçün cəhənnəm başladı". Elə ötən həftə Moskvanın ən cəsarətli telejurnalistlərindən biri Olqa Skabeyeva şikayət etdi ki, "xüsusi hərbi əməliyyatımız ipdən asılıdır" və "bizə elə zərbə vururlar ki, sağ çıxa bilməyəcəyik". Hadisələrin qəfil dönüşündən şoka düşən izləyicilərinə o, "həqiqəti ruslardan gizlətməyə məcbur olduq" deyə izah etdi.

Karen Şahnazarov da hələ sentyabrın 27-də bəyan etmişdi ki, "Ukrayna ordusu bizim texnikamızı qəzəblə məhv edir", "qələbəmiz indi qeyri-mümkündür" və "təqaüdə çıxmağın vaxtıdır"(məsələn Putin üçün). Yazıçı Mixail Veller daha sərt çıxış edərək bildirmişdi ki, xüsusi hərbi əməliyyat "Putinin özünü məhv etməsinə gətirib çıxarır".

Rusiyadakı daxili vəziyyətlə bağlı Qərb auditoriyasına çatan bir neçə təfərrüatdan bəziləri Rusiya ordusunun ən yüksək eşelonlarında korrupsiyaya və Putinin müdafiə naziri Sergey Şoyqunu vəzifədən kənarlaşdırmaq (lakin işdən çıxarmamaqla) və onun yerinə iqtisadçı Andrey Belousovu təyin etməklə onun hərbi qurumdan kökünü kəsmək cəhdlərinə aiddir. Lakin Belousov zabit korpusunu yuxarıdan aşağı təmizləmək əvəzinə, Rusiya Dumasının yüksək rütbəli üzvlərinin mənfəətpərəstliyinə və korrupsiyasına hücum etdi. Nəticədə yaranan xaos hələ yekunlaşmamış ordunun yüksək komandanlığına qarşı tənqidləri yatıra bilmədi. Göründüyü kimi, Ukraynadakı müharibə Rusiyanın daxili ictimai sferasında parçalanmaya gətirib.

Dumadakı televiziya debatlarını izləyən sıravi ruslar də xəbərdardırlar ki, təlabat istehsalının hərbi istehsalata keçirilməsi üçün sivil firmalarla bağlanan müqavilələrin aqibətinin nə olduğunu bilirlər. Bu göstəriş fiaz dərəcələrini artırır və hətta hərbi texnika istehsalçılarını sıradan çıxarır.

Putinin özü də tez-tez Rusiyanın xaricdəki 300 milyard dollarlıq ehtiyatlarının dondurulmuş və əlçatmaz olmasından şikayətlənir. O, etiraf edir ki, "Rusiya bu gün kasıb ölkədir". Cəbhədən gələn "coşqulu" reportajları parodiya edərək bəyan edir ki, "bizim cəbhəmiz ölkəmizin sosial-iqtisadi inkişafı olmalıdır. Bu, bir nömrəli məqsədimizə çevrilməsə, Rusiya fəlakətlə üzləşəcək". Putinin iqtisadi siyasətinə qarşı gileylənən riyaziyyatçı, fizik, okeanoqraf və Rusiya Elmlər Akademiyasının prezidenti Robert Niqmatulin ölkənin iqtisadi çöküşündən təəssüflənərək bildirib ki, Rusiya iqtisadiyyatı hazırda Argentina səviyyəsindədir və Qazaxıstan, Azərbaycan və Belarusdan da aşağıdır: "Bəli, o, deyir, sərmayə qoyuruq, amma heç nə istehsal etmirik. Etiraf etməliyik ki, prezidentimizin bütün siyasəti neqativdir. Lakin onun nazirləri özündən daha yaxşı deyil. Onlar hər dəfə danışanda prezidenti tərifləməklə başlayırlar".

Bu arada, Putinin nüvə doktinasını yeniləməsi və genişləndirilməsi haqqında fərmanı isə nüvə dövlətinin dəstəklədiyi qeyri-nüvə subyektinin - Ukraynanın Rusiyaya hücumu halında atom silahından istifadə imkanını nəzərdə tutur. Bu addım Co Baydenin Ukraynaya Rusiyaya zərbələr endirmək üçün ABŞ-ın uzunmənzilli Taktik Raket Sistemlərindən (ATACMS) istifadə etmək icazəsi verməsindən bir neçə gün sonra atıldı. ATACMS-in uçuş məsafəsi təxminən 300 kilometrdir.

Yenilənmiş doktrinada deyilir ki, Rusiya "ona kütləvi hücumun başlanması və Rusiya sərhədini keçən raketlər haqqında etibarlı məlumat" aldıqdan sonra nüvə silahından istifadə etməyi nəzərdən keçirəcək.

Lakin bütün bunların fonunda Rusiyanın vəziyyət o qədər gərgindir ki, əhalidən telefon yazışmalarında ehtiyatlı olmaq tələb edilir. Yəqin ki, Kreml üçün əcəl zəngi çalınır... Bu məqam onun üçün "ölüm, ya qalım" məqamıdır. Necə ki, Putin demişdi - Rusiya olmayacaqsa, dünya niyə sağ qalmalıdır?!.

**Ülviyyə ŞÜKÜROVA**

II YAZI

# Talıbovun oğlu 2 il ərzində ölkədən 300 milyon dollar çıxarıb

## Həmin pulu Türkiyəyə daşıyan Elməddin Xəlilov "Hürriyyət"ə şok faktları açıqladı

**"Hürriyyət"in ötən saylarının birində "Talıbovun 300 milyon dollarını Türkiyəyə daşıyan şəxs danışdı" sərlövhəli yazı dərc etmişdik. Xatırladaq ki, Naxçıvan Muxtar Respublikası (MR), Şərur rayonu, Dəmirçi kəndində anadan olan Xəlilov Elməddin Sədrəddin oğlu redaksiyamıza gələrək, Ali Məclisin keçmiş sədri Vasif Talıbov və ətrafındakı insanların dövləti necə talan etməsi haqda şok faktları açıqlamışdı.**

Vaxtilə özünün də onlarla əlbir işləməyə məcbur olduğunu deyən E.Xəlilov deyirdi ki, 2009-cu ildən 2017-ci ilədək Naxçıvan MR Sədərək Gömrük Məntəqəsinin giriş-çıxışında qeyri-rəsmi olaraq valyuta dəyişmə fəaliyyəti ilə məşğul olub. Həmin ilin sentyabr ayında Naxçıvanda "Paşa" kimi tanınan, gerçək adı Paşayev Elçin İsmayıl oğlu olan şəxs onunla təxminən 50 min manat pul dəyişib. Bir müddət sonra isə E.Paşayev ona ölkədən qanunsuz yollarla dollar çıxarması ilə bağlı təklif edib: "Gəlib dedi ki, sən bizim işimizi görəcəksən, əks halda burda işləyə bilməzsən. Bildirdi ki, həm bizim pulumuzu gömrükdən keçirəcəksən, həm də öz işini görəcəksən. Mən də həmin vaxt gəlirim yaxşı olduğu üçün işimi itirmək istəmədim, Paşanın təklifini qəbul etməyə, onunla işləməyə məcbur oldum. Beləliklə, gömrükdən bir gün 300 min dollar, başqa gün 500 min dollar keçirməyə başladım".

Elməddin Xəlilovun sözlərinə görə, Türkiyəyə göndərilən vəsait hər dəfə Elçin Paşayevin İğdırdakı "Ekrem Döviz" və "İMC DÖVİZ" adlı valyuta dəyişmə məntəqəsinə təhvil verilib. Beləliklə, "Paşa" ilə işlədiyi iki il müddətində ölkədən qanunsuz yollarla 300 milyon dollara yaxın pul çıxarıb: "İki il ərzində 300 milyon dollara yaxın pul daşıdım. Bəzi günlərdə dollar olmurdu, manat gəlirdi. Mən düşüb Şərur bazarındakı tanışlarımda nə qədər lirə, dollar vardısa yığıb, Türkiyəyə göndərirdim. Bəzən səhər tanışlarımdan dollar və ya lirə yığırdım, axşam, ya da bir gün sonra onlara manat qaytarırdım. Təbii ki, bu zaman onlar da qazanırdı".

Şikayətçi qeyd edir ki, "Paşa" ona Vasif Talıbovun oğlu Seymurun, eləcə də Daxili İşlər naziri Fazil Ələkbərovun və oğlu Əlinin pullarını daşıdığını etiraf edib: "Paşa deyirdik ki, Seymur Talıbovun, Daxili İşlər naziri Fazil Ələkbərovun və oğlu Əlinin işlərini görürəm. Amma mənim onlarla heç vaxt şəxsi əlaqəm olmadı, yalnız Paşa ilə təmasda oldum".

E.Xəlilov iddia edir ki, bu pulların daşınmasının qarşılığında ona heç bir vəsait ödənilməyib, sadəcə, Sədərək Gömrük Məntəqəsinin giriş-çıxışında sərbəst fəaliyyət göstərməsi üçün şərait yaradılıb. Onun sözlərinə görə, valyuta dəyişmə fəaliyyəti nəticəsində ay ərzində təxminən 20-30 min manat qazanıb ki, həmin vəsaitin çox hissəsini də Seymur Talıbovun və Fazil Ələkbərovun pullarının daşınmasına xərcləyib. O, etiraf edir ki, Sədərək Gömrük Məntəqəsində hər kəs onun ölkədən pul çıxarması haqda xəbərdar olub: "Gömrükdə hər gün bir polis əməkdaşı dururdu. Hamısı bilirdi ki, mən "Paşa"nın işini görürəm. Ona görə, hər kəs mənimlə öpüşüb-görüşürdü. Mənim maşınım gömrükdə düz öndə dururdu, başqa kimsəni orda maşın saxlamağa qoymazdılar. Hər zaman gömrükdən növbəsiz keçirdim, az qalırdılar ki, mənə "çest" versinlər. Yəni hamı bilirdi ki, mən nə işlə məşğulam, kimin işini görürəm".

Elməddin Xəlilov deyir ki, o, əvvəllər ölkədən pul çıxarılmasının qanunsuz olduğunu bilməyib: "Mən bilmirdim ki, bu iş qanunsuzdur. Əks halda, bu işi görməzdim. 2018-ci ilin axırı, 2019-cu ilin yanvarından sanki oyandım. Vasif Talıbovun qardaşı Məhərrəm Talıbovun şəhərdə böyük dərman deposu vardı, apteklərə dərman ordan paylanılırdı. Bir gün "Paşa" mənə səs atdı ki, sənə bir nəfər zəng vuracaq, deyərsən ki, o pul məndədir. Söhbət 500 min manata yaxın vəsaitdən gedirdi. Sonra bildim ki, "Paşa"nın depoya borcu olub.



> "İki il ərzində 300 milyon dollara yaxın pul daşıdım. Bəzi günlərdə dollar olmurdu, manat gəlirdi. Mən düşüb Şərur bazarındakı tanışlarımda nə qədər lirə, dollar vardısa yığıb, Türkiyəyə göndərirdim..."




Mən zəng ediləndə bildirdim ki, pul məndədir, Türkiyədən gələndə verəcəm. 2-3 gün sonra həmin şəxs yenidən zəng vurdu ki, pul niyə gəlmədi? Mən də məcbur qalıb pul dəyişənlərdən hərədən 3-5 min toplayıb, müəyyən hissəsini göndərdim. Sonra gördüm ki, bu başqa söhbətdir, "Paşa" məni aldadıb, məsələni evdə açıb danışdım.

Həmin vaxt "Paşa" artıq telefonumu açmırdı, Bakıya gəlmişdi. Ailəmi də götürüb Bakıya gəldim ki, burda onunla üz-üzə danışım. Bu adam yenə telefona cavab verməyiyi üçün onunla görüşə bilmədim. Bundan sonra ailəmin təhlükəsizliyindən narahat olmağa başladım. Odur ki, onları Gürcüstan vasitəsilə İstanbula aparıb, özüm Naxçıvana qayıtdım.

Borc sahibləri də bilirdi ki, pul məndə deyil. Kiminlə işlədiyim hər kəsə bəlli idi. Odur ki, yığışıb Ali Məclisə qəbula getdik. Bir nəfər bizi qəbul etdi ki, nə lazımdırsa Vasif Talıbova deyəcəm. Baş verənləri danışdım. O, Türkiyəyə göndərdiyim 450 min dolların bəyan kağızının surətini də götürdü. Gedib Vasif Talıbova, Seymura nə dedisə, yarım saat sonra gəldi ki, gedin, daxili işlər naziri sizi gözləyir. Hamımız bir yerdə DİN-ə getdik. Bizi DİN-in Cinayət Axtarış İdarəsinin rəisi Qasım müəllim qəbul etdi. O, hər kəsin yanında dedi ki, narahat olmayın, hər şey yaxşı olacaq, biz də Elməddinə kömək edəcəyik, pullarınızı qaytaracaq.

Amma bizi 6-7 ay get-gələ saldılar. Bundan sonra borclular məndən pullarını tələb etməyə başladı. Məcbur qalıb öz evimi, qardaşımın evini, maşınları satıb, borcumun müəyyən hissəsini verdim. Sonra Fazil Ələkbərov məni İranla sərhəddəki Şahtaxtı Gömrük Məntəqəsinə göndərdi ki, get orda işlə, borcunu hissə-hissə ödə. Mən burda işləyib, borcumu az-az qaytarmağı düşünürdüm. Hətta borclu olduğum bəzi şəxslər də mənə gömək edirdilər. Yəni onlara borcum olsa da, mənə pul verirdilər ki, vəziyyətimi düzəldim".

E.Xəlilov iddia edir ki, sonradan ona "torba tikərək" həbsə atıblar: "Şahtaxtıda işlədiyim vaxt həmkəndlim Rafiq məndən pul istədi, dedi ki, bir neçə günə qaytaracam. Sonra bildim ki, Rafiqin bibisi oğlu ona saxta dollar verir, o da satırmış. O, bir gün gətirib məndən aldığı manatı qaytardı. Bundan qısa müddət sonra tutuldu. Polislər soruşub ki, saxta dollara dəyişdiyin manat hardadır? Cavab verib ki, Elməddinə verdim. Məni çağırdılar, dedim ki, o, məndən manat alıb, manat da verib, burda nə suçum var?! Şöbədə məni aldatdılar ki, sənin arxanda Daxili İşlər naziri Fazil Ələkbərov durur, onsuz da səni heç kim tutmayacaq, bu işi üzərinə götür, məsələ bağlansın. Mən bu işi üzərimə götürdüm. Nəticədə 2020-inin avqustunda Cinayət Məcəlləsinin 204.1-ci maddəsi ilə mənə 5,6 il, Rafiqə isə 5 il iş verdilər. Lakin 4 il 19 gün sonra şərti olaraq azadlığa çıxdım".

Elməddin Xəlilov onu da vurğuladı ki, məhbəsdə olduğu müddətdə həbsxananın rəhbər şəxslərindən biri onunla görüşərək, nə üçün azadlıqdan məhrum edilməsi haqda ətraflı məlumat alıb: "Türmənin "osobisti" gəlib mənimlə söhbət etdi. 4-5 saat danışdıq, mən hər şeyi ona açıqladım. Qeydlərini aparıb getdi. Təxminən 10 gün sonra Bakıdan, DTX-dan bir əməkdaş gəldi. Türmədə məni qəbul etdi və ona da ətraflı məlumat verdim. İndi bu görüşlərin nəticəsini gözləyirəm və dövlətimdən, cənab Prezidentdən kömək istəyirəm.

Həbsxanada olanda eşitdim ki, "Paşa" Talıbovlarla işlədiyi vaxt Türkiyə vətəndaşı onun Dubaya göndərdiyi 2,4 milyon dolları oğurlayıb. "Paşa" da Məhərrəm Talıbovun dərman deposuna verdiyim 500 min manatla birgə, bu pulun ümumilikdə 1,5 milyon manatını mənə "yükləyib". Mənə də səs göndərmişdi ki, çox şey danışma, başımıza oyun açarlar, balalarımız əlimizdən gedər".

Təxminən 2 ay əvvəl azad olunduğunu bildirən E.Xəlilov deyir ki, həbsdən çıxan günü borclu olduğu şəxslər ondan pullarını tələb ediblər: "Biri balta ilə, biri bıçaqla gəldi ki, pulumu ver. Bəziləri də təklif edir ki, yığışıb Prezident Administrasiyasının qarşısına gedək. Ona görə, bizə hər hansı dəstək olmasa, hamımız ailə üzvlərimizlə birgə Prezident Administrasiyasının qarşısına gələcəyik ki, səsimizi Prezidentə çatdıraq. Seymurun 1 maşının qiyməti 1 milyondur, bu, bizim - 38 ailənin 1 milyonunu qaytarmaq üçün yetərlidir. Rəsmi qurumlar bizim vəziyyətimizi nəzərə almalıdırlar".

**"Hürriyyət"**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**

Bu il paytaxt Bakıda keçirilən BMT-nin 29-cu iqlim dəyişikliyi konfransı noyabrın 11-də iştirakçıları qlobal əmin-amanlığı bərpa etməyə çağırışla başladı. Prezidentlər, hökumət başçıları, ekspertlər və fəallar da daxil olmaqla, 200-ə yaxın ölkədən 80 000 nəfərə yaxın iştirakçı iqlimin maliyyələşdirilməsi və qlobal istiləşmə ilə bağlı digər məsələləri müzakirə etmək üçün Bakıda toplandı. Gəlin, tədbirin keçirildiyi iki həftə ərzində GOP-29-un qarşısında hansı hədəflər qoyulduğuna diqqət edək.




# GOP-29 Azərbaycana nə verdi və gözləntilərimiz nələrdir?

## Bu tədbirin yüksək səviyyədə baş tutması ölkəmizin beynəlxalq səviyyəli oyunçuya çevrilməsinin bariz nümunəsidir

Öncə xatırladaq ki, BMT İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi "Tərəflər Konfransı" deməkdir. Bu il Azərbaycan Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrlik etdi. Hansı ki, COP-29 konfransına ev sahibliyini ölkəmiz üçün 2024-cü ilin ən mühüm hadisəsi və yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirmək olar. Bu tədbir, obrazlı şəkildə desək, Bakıdan birbaşa dünyaya, insan topluluğuna səsləniş idi.

İqlimin dəyişməsi planetimizin hər bir sakininə - torpaqdan, bitkidən tutmuş canlı aləmin hər bir üzvünə toxunan məsələdir. Sözün əsl mənasında iqlim dəyişikliyinin törətdiyi və tez-tez şahid olduğumuz təbii fəlakətlər ciyərlərimizin aldığı havadan, içdiyimiz sudan, yediyimiz loxmadan tutmuş, bu sadalananları verən torpaq, dəniz, havanın bizə "imdad" çağırışıdır. Belə demək olarsa, iqlimin korlanması nəinki insana, planetimizin hər bir canlısının var olma zamanının altına qoyulmuş partlayıcı anlamına gəlir, çünki hər birimizin bir ümumi evi var - Planetimiz!

İqlim dəyişikliyi təbii fəlakətləri qlobal miqyasda göz önünə sərir. Çünki problemin qlobal miqyası iqlimin korlanması fonunda istənilən ölkənin mövcudluğunu şübhə altına alır. Bu səbəbdən, iqlim dəyişikliyi hər bir ölkənin problemin həlli üçün əməkdaşlığa və həmrəyliyə gəlməli olduğu nöqtədir. Planetimizin var olma, yaxud yox olma astanasında "SOS" siqnalının Bakıdan verilməsinin ölkəmizin önəmini vurğulayan əlamətdar məqam olduğunu qeyd etmək yerinə düşər. Əlbəttə, bu tədbir Bakının önəmli hadisələrə ev sahibliyi etdiyi bir ilk deyil. Amma yuxarıda dediyimiz kimi, qlobal iqlim konfransının Bakıdan dünyaya çağırış ünvanlaması Azərbaycanın qlobal miqyasda sözükeçən bir ölkəyə çevrilməsinin bariz nümunəsidir. Bu fakt ölkəmizin beynəlxalq uğurudur.

Sözsüz ki, bu tədbirin Bakıda keçirilməsi Prezident İlham Əliyevin Azərbaycanın beynəlxalq ictimaiyyətdə sanballı statusu olan ölkə halına gəlməsi üçün sərf etdiyi xüsusi əməyinin nəticəsidir. Konfransın əsas məqsədi əsasən inkişaf etməkdə olan ölkələrdə iqlimlə bağlı problemlərin həlli üçün illik 300 milyard dollar vəsaitin təmin edilməsi və iqlim layihələrinin maliyyələşdirilməsi üçün yeni mexanizmlərin hazırlanması idi. Bu gün əminliklə deyə bilərik ki, COP-29 öz məqsədinə yüksək səviyyədə nail oldu.

Şübhəsiz, COP-29 Azərbaycanda keçirilməklə ölkə iqtisadiyyatına da bir çox istiqamətlər üzrə öz müsbət töhfəsini verəcək. Bu istiqamətlər, ilk növbədə müasir texnoloji yanaşmaların iqtisadiyyatımıza yönəldilməsi olacaq. Eyni zamanda, Azərbaycan qeyri-neft sektorunun inkişafını prioritet istiqamət seçdiyi üçün bu sahənin inkişafını dəstəkləyən mühit yaranacaq. Həmçinin, məşğulluğun təmin olunması sahəsində də fürsətlər artacaq. Paralel olaraq ölkəyə xarici investisiyaların cəlb olunması üçün əlavə bir mühit və potensial formalaşacaq, Azərbaycanda iqtisadi mühitin beynəlxalq investorlara əlçatan olmasına şərait yaradacaq. Ən nəhayət, ölkənin üçüncü enerji strategiyası olan alternativ enerji, yəni yaşıl enerji strategiyasının uğurla həyata keçirilməsi və davam etdirilməsinə, dayanıqlı formada saxlanılmasına imkan verəcək.

Tədbirin mühüm çıxışçılarından biri olan BMT-nin İqlim Dəyişiklikləri üzrə İcraçı Katibi Saymon Still açılış nitqində "Yalnız iqlim konfransı hər bir ölkənin ehtiyacının olduğu tam transformasiyanı həyata keçirə bilməz. Tərəflər bu qarışıqlıqdan çıxış yolu haqda razılığa gəlməlidirlər. Biz də buna görə Bakıdayıq. Biz yeni qlobal iqlim dəyişmələrinin maliyyələşdirilməsi hədəfi üzərində razılaşmalıyıq", - deyə bildirdi.

Still açıqladı ki, iqlim fəaliyyətinin maliyyələşdirilməsinə yardım "xeyriyyə" işi kimi yox, ən zəngin ölkədən tutmuş, ən kasıb ölkəyə qədər bütün ölkələrin maraqlarına cavab verən bir məsələ kimi qəbul edilməlidir.

"Əgər dünya ölkələrinin ən azı üçdə ikisi tullantıları tez bir zamanda azalda bilmirsə, onda hər bir ölkə bunun zərərini görəcək. Əgər ölkələr tədarük zəncirlərində dayanıqlılığını qura bilməsələr, bütün qlobal iqtisadiyyat diz çökəcək. Heç bir ölkə bundan sığortalanmayıb", - deyə Still ifadə etdi.

COP-29-un prezidenti və Azərbaycanın Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayevin açılış nitqi də yaddaqalan oldu. O, çıxışında bildirdi ki, görüşün nəticəsi sözdən deyil, fəaliyyətdən asılı olacaq: "Müəyyən ediləcək yeni səylər daha effektiv nəticələri ehtiva etməlidir. Başa düşürük ki, danışıqlar asan olmayacaq, lakin biz konfransın əsas məqsədinə nail olmalıyıq".

Yeri gəlmişkən, bəzi tərəflərin fikrincə, neft-qaz və yanacaq istehsalçısı olan Azərbaycan üçün iqlim konfransına ev sahibliyi mübahisəli seçim olardı, amma dövlət ağlı arasıkəsilmədən ortalığa atılan təxribatçı çıxışlara baxmayaraq bu təşəbbüsü fürsətə çevirə bildi. Prezident İlham Əliyev Azərbaycanın beynəlxalq nüfuzunu artırmaq məqsədini real müstəviyə daşıdı və konfransı yüksək səviyyədə baş tutdu. Konfransdan əvvəlki aylarda COP-29 Azərbaycan üçün çoxlu reklam formatında əks olundu. Nüfuzlu Qərb xəbər agentlikləri, o cümlədən "Financial Times" və "The Economist", Azərbaycanın iqlim sektorunda boşluqları üzə çıxaran təhlillər dərc edərək, Bakıya qarşı böhtan kampaniyasını "tirajladı". Amma rəsmi Bakının səyləri təxribat kampaniyalarını neytrallaşdırdı.

Tədbirdə iştirak edən yüksək səviyyəli şəxslər arasında BMT-nin baş katibi Antonio Quterreş, Avropa Şurasının sədri Çarlz Mişel, Belarus lideri Aleksandr Lukaşenko və dünyaca məşhur hindistanlı Guru Sadhquru da var idi. Dövlət başçıları ilə konfransda təmsil oluna bilməyən ölkələr isə diplomatik müstəvidə iştirak etdilər. O cümlədən, ABŞ Ağ Evin baş məsləhətçisi Con Podestanın rəhbərlik etdiyi nümayəndə heyətini göndərdi. Doğrudur, Trampın seçkilərdə qələbəsi ABŞ-ın COP-29-un maliyyələşdirilməsinə hər hansı töhfə verib-verməyəcəyi ilə bağlı suallar doğurur. Həmçinin, Tramp ABŞ-ı Paris İqlim Sazişindən çıxaracağına söz verib, amma COP-29-da ABŞ-ın iştirakı kifayət qədər uğurlu oldu.

Maliyyələşdirmə hədəfinin perspektivi bəziləri üçün qeyri-müəyyən olaraq qalsa da, COP-29 potensial olaraq böyük sosial və iqtisadi təsirləri olan regional məsələlərdə irəliləyiş üçün şans yarada bilər. Məsələn, Əfqanıstandan "Taliban" öz nümayəndələrini Bakıya göndərdi ki, bu da radikal sayılan ölkə rəhbərliyinin ilk dəfə olaraq illik iqlim konfransında iştirak etmək qərarına gəlməsi idi. "Taliban"ın iştirakı Mərkəzi Asiya rəsmilərinə Əfqanıstanın şimalında Orta Asiyanın onsuz da zəif su balansını poza biləcək Quş Təpə kanalı layihəsi ilə bağlı əfqan həmkarları ilə əlaqə saxlamaq imkanı verirdi. Qazaxıstan və Özbəkistan da daxil olmaqla Mərkəzi Asiya dövlətləri Əfqanıstanı regional su idarəçiliyi çərçivəsinə daxil etmək istəyir, hansı ki, "Taliban" indiyədək müqavimət göstərib.

Bir sözlə, bədbirin yıxıcı deyil, qurucu xarakterli olması həm ölkəmizin hesabına xal yazılması, həm də gözlənilən faydalı anlaşmalar ilə irəliyə doğru atılmış addımdır. Azərbaycan nəinki Cənubi Qafqaz miqyasında, eləcə də dünya miqyasında sözükeçən qlobal oyunçuya çevrilir ki, bu da ölkəmizə parlaq perspektiv, müsbət gözləntilər vəd edir.

**Ülviyyə ŞÜKÜROVA**



# Fars şovinisti səlib dünyasından min qat məkrli və təhlükəlidir

## Onlar üçün şiəlik, ümumiyyətlə din, bəd niyyətini ört-basdır eləmək üçün gözəl şirmadır...

**1941-ci ildə faşist Almaniyası SSRİ-yə hücum edəndə kommunist rejimi bütün ölkəni səfərbər edə bildi. Əksər qələm sahibləri də əsgər libası geydilər, vətənpərvərlik təbliğatı ən yüksək səviyyəyə qaldırıldı. O dövrün ən populyar qələm sahiblərindən biri, İlya Erenburq əsgərlərə müraciətləri bu sözlərlə başlamışdır: - Vur, qarşındakı insan deyil, uşaq, qoca, qadın qatilidir, bəşəri mədəniyyətin düşmənidir!**

O odlu, alovlu illərdə sovet yazıçı və şairlərinin işıq üzü görmüş yazılarının çoxunu oxumuşam. Bir başdan sovdu xaltura yazıya rast gəlməmişəm. Bir əsrə yaxın vaxt keçib, yazılmış şeirlər, bəstələnmiş mahnılar indi də səslənəndə nəhəng stadionlar, salonlar ayağa qalxır. Mən 60-cı illərdə Rusiyada bəstələnmiş mahnılardan danışmıram, bu tamam başqa aləmdir.

Ermәni nasistlərinin Azərbaycanda nələr törətdiklərini hamı bilir. Qafqazın tarixində hələ görünməmişdi ki, məzarlar yerlə yeksan edilsin, ağaclar kəsilsin, mehrablar murdarlansın. Şeyx Şamil hərəkatı yatırılanda qaniçən general Yermolov öz ordusu ilə çox rəzalətlərə qol qoymuşdu. Amma Qarabağda baş verənləri qələmə almaq mümkün deyil. Heç kimdən qorxmadan, çəkinmədən deyirəm, müdhiş cinayətlərin ört-basdır olunmasında bizim qələm sahibləri, siyasətbaz lotular hamıdan çox canfəşanlıq etdilər. Sanki bunlara əmr verilmişdi, qan qisasından, intiqamdan az danışın, tolerantlığınızdan nə qədər istəsəniz basıb bağlaya bilərsiniz. Elə belə də oldu! İtib-batanların dəqiq sayı bəlli deyil, sutenyorlar millətin qızlarını o ölkə qalmayıb ki, orada aparıb satmasınlar. İşğal zamanı evlər nəinki dağıdılıb, onlarda ağacdan metaldan nə varsa, hər şey söküлüb aparılıb, üzümlüklər, relikt ağaclar mişarlanıb, daha nələr...

Mən bədbəxt də düşünürdüm ki, anarlara, elçinlərə, ruspərəst mənsəb sahiblərinə xoş gəlmək xatirinə müstəmləkə ədəbiyyatı xadimlərini vəsf edənlər utanıb bir baş cəbhəyə yollanacaqlar. Kimə deyirsən? Heyif deyil telekanal? "Cici-bacılarının" köməyi ilə çıx telekanala və başla milli qeyrətdən gəvəzələməyə, iki-üç verilişdən sonra dəbə düşəcəksən. Cavanlar da düşünəcəklər ki, millətin yeganə haqq bağıran səsi sənsən.

...İşimiz əvvəldən tərs gəlib. Deyilənlərə görə, Arazdan cənubda otuz milyondan çox soydaşımız yaşayır. Burada, satqın övladlarının binamus əməlləri sayəsində Azərbaycan qana qərq olanda, cənubda olanların birinin də tükü tərpənmədi. Hamı düşünürdü ki, on minlərlə fədai Arazı adlayacaq, "qardaş, çəkinmə, səninləyəm, gəldim",- deyərək erməni qatillərinin üzərinə cumacaq. Arazın o biri sahilində əl-qol oynadan beş-on nəfərin qışqırığını, Təbriz stadionunda azarkeşlərin nərəsini biz kömək kimi başa düşdük, sevindik. Çox keçmədi, onu gördük ki, ermənilərin dəvəti ilə işğal olunmuş şəhər və kəndlərimizə girən "əziz" soydaşlarımız talan və taraca başladılar. Alınan ərzaq və hərbi sursatın yerinə ermənilər soydaşlarımıza hər şeyi soyub aparmaq icazəsini verdilər. Biz fədailəri gizləyirdik, onların yerinə evimizə maradyorlar girdilər. Narkotika da az qala tonlarla daşınırdı... Bu da qardaşlıq köməyi!

Məhərrəm ayında güney Azərbaycanın elə şəhəri kəndi yoxdur ki, orada böyük mərasimlər keçirilməsin, novhələr, mərsiyələr oxunur, sinə vuranların sayı-hesabı olmur. Burada, şimalda Kərbəla şəhidlərinə matəm saxlayıb hər cürə ayin yerinə yetirən oğullar kişi kimi sözlərini dedilər. Tariximizə qızıl səhifələr yazdılar.

Min ildən çoxdur ki, Kərbəlada qətlə yetirilmiş imam övladı balaca Ələsgərin matəmini saxlayırıq.




Dinimizin, Vətənimizin qanlı düşmənlərini bağırlarına basıb onlara çörək verən, başlarını tumarlayan, İranın əmmaməli ağalarına müraciət edirəm! Azərbaycanda neçə min körpə uşağın, yeniyetmənin, ermənilərin əli ilə qətlə yetirildiyini bilirsiniz. Bunların hamısı müsəlman balaları idi! Özünüzü elə göstərirsiniz ki, guya Fələstinin təəssübünü çəkirsiniz. Bu dəqiqənin özündə bu bədbəxt ölkənin özü də, xalqı da yer üzündən silinməkdədir. Livan da tar-mar edilir... Sərvətləri başlarından aşan ərəb şeyxlərinin, əmrlərinin də heç nə veclərinə deyil. Daha dəqiq desək, çəkinirlər, qorxurlar, əfsanəvi ərəb şücaətindən, fədakarlığından əsər-əlamət qalmayıb. Günahkar xalqlar yox, onları zaman-zaman dirçəlməyə qoymayan avantürist liderlər türk övladına patoloji nifrət bəsləmiş məzhəb dəllallarıdır. İordaniyanın, Suriyanın halına baxırıq, bunlarda o qüdrət haradadır ki, İsrailin hərb maşını qarşısında dursun?! İpləmə Qəzzafi Liviya kimi zəngin ölkəni belə girdabına saldı. Səddam o qədər zinakarlıqlar göstərdi ki, axırda öz doğma şəhərində boğazından asılanda bir müsəlman lideri qımıldanmadı.

Nə diletantam, nə də tarix dərsindən aşağı qiymət almışam. Məşrutə hərəkatından üzü bu yana başımıza gələnlər sübut etdi ki, fars şovinisti sionistlərdən, bütün səlib dünyasından da min qat məkrli və təhlükəlidir. Fars şovinisti üçün şiəlik, ümumiyyətlə din, bəd niyyətini ört-basdır eləmək üçün gözəl şirmadır.

...Məşhur şair Konstantin Simonov şeirlərində daha sərt idi. O, harada olursa olsun, almanın məhv edilməsini tələb edirdi. Bu qədər dəhşətlərdən sonra biz mərd-mərdanə nifrətimizi dilə gətirməkdən çəkinirik. Guya biz rusdan, ermənidən əlavə bir düşmən də qazanmaq istəmirik. Bizim kommunist tarixçilərimiz, sosializm quruculuğundan, Leninin milli siyasətindən, beşillik planlardan və s. bu kimi axmaq mövzulardan, qalın-qalın kitablar yazıb, fəxri adlar alanda farspərəst, qələm sahibləri də keçmişimizi çirkaba batırıb səltənət sürmüş xanədanlarımızı hörmətdən salırdılar. Şovinist farsların niyyətləri Moskva irticasının arzuları ilə üst-üstə düşürdü. Gədalıq o qədər qanımıza, iliyimizə sirayət etmişdi ki, sovet senzurası zəifləyəndə, hətta hürriyyət qazandığımız illərdə belə, bizim ziyalılar ortaya bir abırlı əsər qoya bilmədilər. Elə bu günlərdə birinci telekanalda "Qatır Məmməd" kimi binamus filmin göstərilməsi sübut etdi ki, qərinələr boyu lakey kimi yaşamağa elə öyrənmişik ki, kimləri alçaldıb təhqir etməyi başa düşmürük. Bəlkə də başa düşürük, amma kölәlik virusu qoymur.

Qələbə bizə baha başa gəlib. Amma ideoloji iş naqislərin əllərindədir, mənəvi mühit təmiz olsaydı, ölkədə cinayət hər yeri başına almazdı. Dəfələrlə yazmışam, sərvəti-samanı başından aşan YAP "ideoloqlarını", özəl telekanallarda durmadan reklam edilən, əxlaqları hamıya bəlli olan ünsürləri cəmiyyətdən təcrid etmək lazımdır. Kimi dindirirsən, "Mən bizim telekanallara baxmıram, bu düşüklərin nəyinə baxım, kül olsun o vətənpərvərliyin başına ki, onu elgizlər, zaurlar təlqin edir" deyir.

Əlimdən rus tarixinə dair minlərlə kitab keçib. Rusiya Azərbaycanda milyardlar itirdi, "Bakı beynəlmiləl şəhərdir" deyərək onu tədricən əlimizdən az qala almışdı. Ordenli, medallı, satqın zümrənin köməyi ilə elə bir imperiya cəlladı qalmamışdı ki, o, burada bütləşdirilməsin, dünənləri "çuşka", "baran" adlandırılan azərbaycanlı Moskvanın sadiq giyənasının belini qırıb rusun hərbi texnikasını qənimət kimi dünyaya göstərir. Əlbəttə ki, Moskva bunu heç vaxt həzm etməyəcək.

**Firuz HAŞIMOV**



# Bir qrup səhmdara qarşı dələduzluq

## "Bakı Tikinti Quraşdırma" ASC-nin səhmdarları rəhbərliyin qanunsuz əməllərindən şikayətçidir

"Bakı Tikinti Quraşdırma" ASC-nin bir qrup səhmdarı - Səfixanov İsrafil Əlipaşa oğlu, Zərbəliyev Fuad İbrahim oğlu, Həsənov Nöfəl Qurban oğlu, Süleymanov Rövşən Süleyman oğlu, Əliyev Yaşar Saşa oğlu, Sadıqov Rəhim Nəsif oğlu, Abbasov Tofiq Əhməd oğlu, Morozov Timofey Vasilyeviç, Şahmaliyev Mahir Fevral oğlu, Bağırov Rəsul Bağır oğlu və Hüseynov Mammed İsrafil oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Onlar bildirirlər ki, hər biri uzun illər çalışdıqları "Bakı Tikinti Quraşdırma" ASC-də müəyyən sayda səhm sahibi olsa da, sonradan rəhbərlik tərəfindən qanunsuzluqla üzləşiblər.

> Bundan sonra, 2020-ci ildən bu günə kimi özünü Ələsgərov Zaur Zakir oğlu cəmiyyətin sərancamında qalmış 0.5 ha torpaq sahəsi və bizə məxsus 1230 səhmə də, müəssisə rəhbərinə heç bir aidiyyəti olmadığı halda, sahiblənərək dələduzluq etmiş və 0.05 ha ərazidə olan tikililəri də icarəyə verərək, səhm sahiblərinə düşən vəsaiti mənnimsəmişdir"...

Səhmdarlar xatırladır ki, Azərbaycan Respublikası "Azərsənayetikinti" Dövlət Şirkətinin Bakı Quraşdırma İdarəsi 20.04.1987-ci ildə 4 saylı Tikinti Trestinin 4 saylı Bakı Tikinti Quraşdırma İdarəsi kimi fəaliyyət göstərib. "Azərsənayetikinti" Dövlət Şirkətinin 27 aprel 1995-ci il tarixli, 68 saylı əmrinə əsasən, "Bakı Tikinti Quraşdırma İdarəsi" adlandırılıb. 19 mart 1998-ci ildə Bakı Tikinti Quraşdırma İdarəsi ASC-yə çevrilib və Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsi tərəfindən "Bakı Tikinti Quraşdırma" ASC-yə 0103-P32-38615 nömrəli şəhadətnamə verilib.

Sonradan "Bakı Tikinti Quraşdırma" idarəsinin özəlləşdirmə planı və emissiya prospekti hazırlanıb, təsdiq edilib. Həmin sənədə əsasən, 01 yanvar 1997-ci ildə işçilərin sayı 45 nəfər olub. Əsas fondların balans dəyəri isə 01 iyul 2000-ci il tarixdə 146.789.000 manat, carı dövr üçün emissiya prospekti 328.724.000 manat olub.

14 iyun 2000-ci ildə cəmiyyətin nizamnamə kapitalı 18.932.000 manat, səhmlərin sayı 18.932 ədəd, bir səhmin nominal dəyəri 10 000 manat təşkil edib və bütün səhmlər eyni nominal dəyərə malik olub.

"Bakı Tikinti Quraşdırma" ASC-nin 15%-i, yəni səhmlərin 2840 ədədi əmək kollektivi üzvlərinə güzəştli satışa yönəlib və bu səhmlərin nominal dəyəri 28.400.000 manat təşkil edib. Müəyyən edilmiş qaydada pul hərracları, investisiya müsabiqələri və hərraclarında satılan adi səhmlərin sayı 5679 ədəd, səhmlərin nominal dəyəri 56.790.000 manat təşkil edib.

Şikayətçilər qeyd edir ki, Azərbaycan Respublikası Dövlət Əmlakının Özəlləşdirilməsinin II Dövlət Proqramına uyğun olaraq Dövlət Əmlak Nazirliyinin 01.09.2000-ci il tarixli, 166 saylı sərancamı ilə "Azərsənayetikinti" Dövlət Şirkətinin Bakı Tikinti Quraşdırma İdarəsinin bazasında "Bakı Tikinti Quraşdırma" ASC yaradılan zaman onların hər birinin cəmiyyətdə müəyyən sayda səhmləri olub: "Bu barədə Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi tərəfindən Reyestr kitabı 3, səhifə 59, qeydiyyat № 000790, 29 fevral 2008-ci il tarixli şəhadətnamə verilmişdir. Şəhadətnaməyə əsasən, "Bakı Tikinti Quraşdırma" ASC-nin Bakı şəhəri, Nizami rayonu, 6-cı Köndələn küçəsi 1 ünvanında yerləşən, ümumi sahəsi 1253,3 kv.m, qeyri-yaşayış sahəsi (tikinti altında) 1526,2 kv.m təşkil etmişdir. Eyni zamanda, cəmiyyətin səhmlərinin qeydiyyatı "Qiymətli Kağız Sahiblərinin Reyestrində" 18.02.2008-ci ildə qeydiyyata götürülmüşdür. Həmin Reyest qeydində cəmiyyətin ümumi səhmlərinin sayı 18 932 ədəd göstərilmişdir".

Şikayətçilər deyir ki, 2008-ci ildə Heydər Əliyev prospektində aparılan yenidənqurma işləri ilə əlaqədar "Bakı Tikinti Quraşdırm" ASC-nin yerinin dəyişdirilməsi qərara alınıb: "Belə ki, 08.07.2008-ci ildə dövlət ehtiyaclarının tələbləri nəzərə alınmaqla, cəmiyyətin tikili əmlakı və torpaq sahələri ilə birlikdə Bakı şəhəri, Nərimanov rayonu, Ələsgər Qayıbov küçəsi 10 H ünvanında 9000 kv.m. torpaq sahəsinə və 19 noyabr 2008-ci il tarixli müqaviləyə (dəyişmə müqaviləsi) əsasən, həmin ünvanda 500 kv.m torpaq sahəsinə dəyişdirilmişdir. Bu zaman cəmiyyətin əsas səhm sahibi öz səhmlərini 08.07.2008-ci



ildə Bakı şəhəri, H.Seyidzadə küçəsi, ev 30 a, mənzil 45-də qeydiyyatda olan 13.04.1963-cü il təvəllüdlü Musayev Rəhim Mikayıl oğlunun adına keçirmiş, lakin səhmdarlara heç bir məlumat verilməmişdir. Daha sonra Orucov Rəfail Fəzail oğlu təkrar olaraq 19.11.2008-ci ildə onunla Musayev Rəhim Mikayıl oğlu arasında bağlanmış müqaviləyə əsasən, 500 kv.m ərazini müəssisənin Bakı şəhəri, Nizami rayonu, 6-cı Köndələn 1 ünvanında olan 633,4 kv.m əsas və 1253 ,3 kv.m qeyri-yaşayış sahəsinə dəyişmişdir. Nəticədə Orucov Rəfail Fəzail oğlu ilə özünü ASC-nin sədri kimi təqdim edən Ələsgərov Zaur Zakir oğlu arasında 17.06.2020-ci il tarixində AN-I № 0860663 saylı "Daşınmaz Əmlakın Alqı-Satqı Müqaviləsi" bağlanmışdır və cəmiyyətin ümumi sahəsi 0,9 ha. olan torpaq sahəsi 5.600.000 manata satılmışdır.

Bundan sonra, 2020-ci ildən bu günə kimi özünü Ələsgərov Zaur Zakir oğlu cəmiyyətin sərancamında qalmış 0.5 ha torpaq sahəsi və bizə məxsus 1230 səhmə də, müəssisə rəhbərinə heç bir aidiyyəti olmadığı halda, sahiblənərək dələduzluq etmiş və 0.05 ha ərazidə olan tikililəri də icarəyə verərək, səhm sahiblərinə düşən vəsaiti mənnimsəmişdir".

Səhmdarlar deyir ki, dəyişmə müqavilələri Səhmdar Cəmiyyətin adı ilə yazılmalı olduğu halda, həmin müqavilələrdə qanunsuz olaraq Orucov Rəfael Fəzail oğlunun adı qeyd olunub: "Nəzərinizə çatdırırıq ki, biz ASC-nin üzvləri olaraq həmin müqavilədən 2023-cü ildə xəbər tutmuşuq. Uzun müddət Orucov Rəfael Fəzail oğlu həmin dəyişmə müqavilələrini gizli saxlamışdır. Həmçinin, o, cəmiyyətə aid olan torpaq sahəsini şəxsi mülkiyyət kimi dəyişmə müqaviləsində qeyd etdirməklə, sonradan Reyestr Xidmətinə müraciət etmiş və Azərbaycan Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətinin Hüquqların Dövlət Qeydiyyatı Haqqında Daşınmaz Əmlakın Dövlət Reyestrində - Reyestr nömrəsi 007013000230, qeydiyyat nömrəsi 1108071341, qeydiyyat tarixi 05.09.2008-ci ildə seriya MH № 0155543 saylı çıxarışı öz adına almışdır. Halbuki, cəmiyyətin rəhbərliyi (həm əvvəlki, həm də hazırkı), "Bakı Tikinti Quraşdırma " ASC kimi təsis edildən sonra bir dəfə də olsun səhmdarların umumi yığıncağını keçirməmişdir( və ya bu barədə bizə heç bir məlumat verilməmişdir). Üstəlik, cəmiyyətin yerləşdiyi torpaq sahəsi və daşınmaz əmlaklar da Orucov Rəfail Fəzail oğlunun adına xüsusi mülkiyyət kimi Reyestr Xidmətində qeydiyyatdan keçmişdir. O isə, biz səhmdarlara məlumat vermədən və səhmdarların ümumi yığıcağını keçirmədən cəmiyyətin 7533 kv.m əmlak kompleksini və 0,9 ha torpaq sahəsini Daşınmaz Əmlakın Alqı - Satqı Müqaviləsi (AN-! № 0860663) ilə 17.06.2020-ci ildə (Covid-19 pandemiyası vaxtı) Ələsgərov Zaur Zakir oğluna satmışdır. O isə, hazırda bizə məlumat vermədən səlahiyyətsiz iclaslar keçirərək, biz səhmdarlara məxsus əmlakları idarə edir. Halbuki, həmin səxsi biz seçməmişik və ona bizim səhmlərimizi idarə etmək səlahiyyəti verməmişik. Bu səbəbdən, onun biz səhmdarların iştirakı olmadan iclas keçirmək səlahiyyəti yoxdur".

*(Ardı var)*

**Hazırladı: J.FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

Bakı şəhəri, Xətai rayonu, H.Aslanov qəsəbəsi, Sahib Hümbətov küçəsi 11 ünvanında yaşayan, şəhid qardaşı Abuzərov Daşqın Abuzər oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçinin məktubunu olduğu kimi dərc edirik:

# İcra başçısı məhkəmə sədrinin

## Prezidentin Azərbaycan Bayrağı ordeni ilə təltif etdiyi şəhidə aid məhkəmə qərarı icra olunmur

### Şirvan İnzibati Məhkəməsinin sədri Fehruz Abbasov 4 ilə yaxındır qanuni qüvvəyə minmiş məhkəmə qərarını icraya göndərmir

### Daşqın Abuzərov: "Haqqında iki məhkəmə işi olan icra başçısı çıxılmaz vəziyyətdə qalır və mənə qarşı əks-kampaniyaya keçib..."


ID: 1700967

Azərbaycan Respublikası adından

QƏRARDAD

ŞİRVAN İNZİBATİ MƏHKƏMƏSİ

İş № 2-1(120)-1929/2021 14.12.2021-ci il

Şirvan İnzibati Məhkəməsinin hakimi Həsənov Samir Firdusi oğlu iddiaçı Abuzərov Daşqın Abuzər oğlunun cavabdeh İmişli rayon İcra və Probasiya şöbəsinin icra məmuru Taleh Mirhüseynova qarşı "İcra məmuru Taleh Mirhüseynovun əməllərinin məhkəmə araşdırılmasını, ona qarşı hüquq və ya cinayət pozuntusu (mənəvi və ya maddi ziyan, təzminat) dərəcəsinin müəyyən edilməsi" barədə iddia tələbinə dair iddia ərizəsini, ona əlavə edilmiş sənədləri və iş materiallarını nəzərdən keçirib müəyyən etdi,

**Təsviri hissə:**

İddiaçı Abuzərov Daşqın Abuzər oğlu cavabdeh İmişli rayon İcra və Probasiya şöbəsinin icra məmuru Taleh Mirhüseynova qarşı "İcra məmuru Taleh Mirhüseynovun əməllərinin məhkəmə araşdırılmasını, ona qarşı hüquq və ya cinayət pozuntusu (mənəvi və ya maddi ziyan, təzminat) dərəcəsinin müəyyən edilməsi" barədə qərar qəbul edilməsini xahiş etmişdir.

İddia ərizəsi inzibati mübahisə kimi qeydiyyata alınaraq məhkəməyə daxil olduğu gündən icraata qəbul edilmiş sayılmışdır.

Şirvan İnzibati Məhkəməsinin 10 noyabr 2021-ci il tarixli, 2-1(120)-1929/2021 nömrəli və 29 noyabr 2021-ci il tarixli, 2-1(120)-1929/2021 nömrəli məktubları ilə iddiaçı Abuzərov Daşqın Abuzər oğluna hüquqi yardım edilmişdir.

**Əsaslandırıcı hissə:**

Məhkəmə iş materiallarını araşdıraraq hesab edir ki, iddiaya inzibati icraat qaydasında baxılması mümkün sayılmamalıdır.

Belə ki, iş materiallarında olan İmişli rayon Məhkəməsinin 01.10.2021-ci il tarixli, 2(036)-4715/2015 nömrəli məktubundan görünür ki, İmişli rayon Məhkəməsinin 09 oktyabr 2015-ci il tarixli, 2(036)-4715/2015 nömrəli məhkəmə əmri icra olunması üçün təkrar İmişli rayon İcra və Probasiya şöbəsinə göndərilmişdir.

İş materiallarında olan İmişli rayon Məhkəməsinin 09 oktyabr 2015-ci il tarixli, 2(036)-4715/2015 nömrəli məhkəmə əmrindən görünür ki, kreditor "Unibank" KB ASC-nin ərizəsinin təmin olunması, borclular Abuzərov Daşqın Abuzər oğlundan (İmişli rayonu,

Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı: Hakim - Samir Həsənov
Məhkəmənin adı: Şirvan İnzibati Məhkəməsi
Sənədin elektron yüklənmə ünvanı:
http://e-mehkeme.gov.az/signed/ShowEcoc?guid=36927e0c07ff458690ef99b09f5c35a8

iddia ərizəsinə kənar müdaxilə edilmiş qərar

Qaravəlli kəndi) və Quluyev Rauf Ramiz oğlundan (İmişli rayonu, Qaravəlli kəndi) müştərək qaydada 2936.46 manat əsas borc, 210.15 manat faiz borc, 70.53 manat cərimə, cəmi 3217.14 (üç min iki yüz on yeddi manat on dörd qəpik) manat və ödənilmiş dövlət rüsumuna görə 20 (iyirmi) manat tutulub tələbkar "Unibank" KB ASC-nin (ünvan:


**Daşqın Abuzərov** <dashqinabuzarli@gmail.com> ср, 3 июл. 2024 г. в 09:43

Кому: contact@shirvanadministrativecourt.gov.az

Şirvan İnzibati Məhkəməsinin sədri Abbasov Fehruz Novruz oğluna:
BİR DAHA BİLDİRİRƏM Kİ sizin Şirvan İnzibati Məhkəməsinin sədri olaraq mənim 30.04.2024, 08.05.2024, 02.06.2024 və 25.06.2024 - ci il tarixli CAVABSIZ TƏKRAR MÜRACİƏTLƏRİMƏ cavab adı altında göndərdiyiniz 01.07.2024 - ci il tarixli məktubunuz 21.06.2024 - ci il tarixində tərtib edilən lakin tərəfinizdən "11.06.2024- cı il" tarixi yazılmaqla mənə gönərdiyiniz məkubla eynidir. YEGANƏ FƏRQ AMMA MÜHÜM FƏRQ 11.06.2024 - ci il tarixli məktubun 9 və 10 - cu sətirlərindəki "... bu müddət ərzində idda ərizənizə kənar müdaxilə edilməsi barədə müraciətiniz olmamış ..." ifadəsidir. Siz bu ifadəni 11.06.2024- ci il tarixli məktubun mətnindən çıxarmaqla 01.07.2024 - ci il tarixl məktubda SIĞORTA və ya ÖZÜNÜ MÜDAFİƏ məqsədi ilə " BİR DAHA BİLDİRİRƏM Kİ " ifadəsini yazmaqla mənə məktub göndərmisiniz. Həmin ifadənin mətndən çıxarılmasına səbəb mənim sizə göndərdiyim 25.06.2024- ci il tarixli məktubum olmuşdur.
25.06.2024 - ci il tarixində sizə göndərdiyim ƏSASLI VƏ MÜKƏMMƏL məktubda rəsmi faktlarla hətta MƏHKƏMƏ QƏRARDADI ilə sübüt etdim ki mənim iddia ərizəsinə kənar müdaxilə edilməsi barədə Şirvan İnzibati Məhkəməsinə çoxsaylı müraciətim olmuşdur. SİTAT: Şirvan İnzibati Məhkəməsinə 23.11.2021 ci il tarixli CAVABSIZ MÜRACİƏTİM.
Hətta dövlətin adından qəbul edilən 14.12.2021 - ci il tarixli 2- 1(120) - 1929/ 2021 saylı məhkəmə qərardadında hakim özü etiraf edir ki vətəndaş idda ərizəsinə kənar müdaxilə ilə bağlı bizə müraciət etmişdir. Siz məhkəmə sədri olaraq yaxşı olar ki həmin qərardadın 7- səhifəsinin 11- ci abzası ilə BİR DAHA tanış olasınız .
24 rayonu əhatə edən bir inzibati məhkəmənin sədri olaraq cavab adı altında mənə göndərdiyiniz 01. 07.2024- ci il tarixli sonunda Azərbaycan Respublikası Konstitusiyasının 60- cı maddəsinin I hissəsindən bəhs edəcəyinizi gözlədiyim halda təssüflər olsun ki bunu hələ də görmürük.
Yuxarıda qeyd etdiklərimə əsasən Sizdən XAHİŞ EDİRƏM mənim Sizə Şirvan İnzibati Məhkəməsinə 23.11.2021- ci il tarixli cavabsız müraciətimə cavab verilməsi təmin edilsn. Abuzərov Daşqın tel-050-659-30-51 tarix 03.07.2024


**Daşqın Abuzərov** <dashqinabuzarli@gmail.com> вс, 2 июн. 2024 г. в 23:38

Кому: contact@shirvanadministrativecourt.gov.az

Məhkəmənin sədri Fehruz Abbasova: TƏKRAR MÜRACİƏT ❗
05.11. 2022- ci il tarixində Ali Baş Komandan Prezident İlham Əliyev cənabları tərəfindən 28 il sonra DÖVLƏT QARŞISINDA XÜSUSİ XİDMƏTLƏRİNƏ görə AZƏRBAYCAN BAYRAĞI ordenli ilə təltif edilmiş şəhid- müəllim Abuzərov Bəhmən Abuzər oğlunun qardaşı və Qalib ölkənin vətəndaşı olaraq olaraq bir daha sizə.məlumat üçün bildirirəm ki SƏDRLİK ETDİYİNİZ Şirvan İnzibati Məhkəməsinə təqdim etdiyim 01.11.2021- ci il tarixli iddia ərizəmə məhkəmədə sonradan kənar müdaxilə edilməklə məzmun və mahiyyət dəyişikliyinə cəhd edilmiş və MÜVƏQQƏTİ DƏ OLSA buna nail ola bilmişlər.( cavabdeh İmişli İcra və Probasiya şöbəsi). Müdaxilə edən həmin şəxs MƏNƏ MƏLUMDUR və KİMLİYİ BİLİNİR. Məhkəmə sədri olaraq sizdən XAHİŞ EDİRƏM həmin şəxsin kənar müdaxiləsinin və həmin əlyazmanın ( xəttin) həqiqətən ona mənsub olduğunun RƏSMİ TƏSDİQİ, EKSPERTİZASI ÜÇÜN və etdiyi qanunsuz əmələ görə CƏZALANDIRILMASI məqsədilə mənim hara və necə müraciət etməyim haqqında mənə HÜQUQİ YARDIM göstərilməsini təmin edəsiniz. İmza : Abuzərov Daşqın Abuzər oğlu Tel 050-659-30-51 tarix 02.06.2024


**Daşqın Abuzərov** <dashqinabuzarli@gmail.com> вт, 25 июн. 2024 г. в 12:38

Кому: contact@shirvanadministrativecourt.gov.az

Şirvan İnzibati Məhkəməsinin sədri Abbasov Fehruz Novruz oğluna : Sədrlik etdiyiniz məhkəmədə iddia ərizəmə edilən kənar müdaxilə ilə bağlı sizə 2024- ci il ərzində 30 aprel tarixindən başlayaraq dəfələrlə 30.04.2024, 08.05.2024, 02.06.2024 tarixli və sair tarixli çoxsaylı CAVABSIZ TƏKRAR MÜRACİƏTLƏRİM mövcuddur və həmin müraciətlərlə tanış ola bilərsiniz. Siz 20- dən artıq rayonu öz yurisdiksiyasında birləşdirən bir İnzibati Məhkəmənin sədri olaraq sadə vətəndaş müraciətinin cavablandırmasının İFRAT gecikdiriməsini düşünərək mənim ilkin 30 aprel 2024 - ci il tarixli müraciətimi istisna edərək və ya gizlədərək " sizin 08.05.2024 və 02.06.2024 tarixli EYNİ MƏZMUNLU müraciətniz " kimi ifadə işlədərək mənə 21 iyun tarixli məktuba " 11 iyun 2024 ci il" tarixini yazaraq həmin məktubu 21 iyun tarixində ELEKTRON POÇT vasitəsilə mənə gönərmisiniz. Öncə onu bildirim ki XXI əsrdə ƏN OPERATİV məktub, mesaj və sənəd mübadiləsi vasitəsi ELEKTRON POÇT vasitəsidir.Lakin naməlum səbəblərdən sizin 11 iyun tarixli elektron məktubunuz mənə 21 iyun tarixində 10 ( on) gün gecikmə ilə çatmışdır. 21 iyun tarixində yazılan məktuba "11 iyun 2024" yazmaq vətəndaş müraciətlərinə cavab verilməsini həyata keçirən məkhəmə əməkdaşının özünü sığortalaması kimi qiymətləndirilə bilər təbbi ki məktub onun öz adından göndərilmiş olsaydı. Amma çox təəsüflər olsun ki bu qanunsuz və məntiqsiz məktub BÖYÜK BİR ƏRAZİNİN YURİSDİKSİYASINA AİD DİR MƏHKƏMƏ SƏDRİNİN Şirvan İnzibati Məhkəməsinin sədri ABBASOV FEHRUZ NOVRUZ OĞLUNUN ŞƏXSİ İMZASI İLƏ göndərilmişdir.

Bu xidmət Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən (ümumistifadəli telekommunikasiya şəbəkəsində fəaliyyət göstərən telekommunikasiya operatorları, provayderləri, eyni zamanda, digər hüquqi və fiziki şəxslər ....AZƏRCELL, Bakcell , Nar... ) göstərilir. Sizin şikayət hüququnuz var ki siz 11 iyun tarixli ELEKTRON MƏKTUBUN 21 iyun tarixində 10 GÜN GECİKMƏ İLƏ ünvana çatmasına görə müvafiq nazirliyə irad və şikayət müraciəti ünvanlayasınız. Sizin bu müraciəti edib etəməyəcəyinizdən asılı olmayaq məktubun ALICISI OLARAQ məktubun 10 GÜN KEÇİRMƏSİNƏ GÖRƏ tərəfimdən Nazirliyiə şikayət ərizəsi müraciət ediləcəkdir. Həmçinin məhkəmə sənədinin 10 ( on) gün gecikdirdiyinə görə elektron poçt xidmətini həyata keçirən müvafiq provayderdən Sizə məhkəməyə yaxın günlərdə iddia ərizəsi ilə müraciətim qaçılmazdır .Tərəfinizdən ƏDALƏTLİ və ŞƏFFAF məhkəmə araşdırmasının aparılacağına tam ümidliyəm.
Siz həmin məktubda "08.05.2024 və 02.06.2024 - ci il tatixli EYNİ MƏZMUNLU MÜRACİƏTLƏR" ifadəsindən istifadə etmisiniz. Təbii ki bu mənim ikinci və



**"Hörmətli redaksiya!**

Diqqətinizə çatdırım ki, qardaşım Abuzərov Bəhmən Abuzər oğlu ali təhsilli müəllim olsa da, mütəmadi olaraq döyüş bölgələrində olmuşdur. Daha sonra Ulu Öndər Heydər Əliyevin xalqa 3 noyabr tarixli müraciətindən sonra rəsmi olaraq Hərbi Komissarlığa müraciət edərək, könüllü şəkildə cəbhəyə getmişdir. Füzuli rayonu uğrunda gedən döyüşlərdə iştirak etmiş və bu zaman qəhrəmancasına şəhid olmuşdur.

İmişli rayon İcra Hakimiyyətinin 03.06.1996-cı il tarixli, 83 saylı sərəncamı ilə şəhid-müəllimin adı İmişli Tarix Diyarşünaslıq Muzeyinə verilməklə əbədiləşdirilmiş və 24.01.1997-ci il tarixində muzeyin açılış tədbiri keçirilmişdir.

Həmin dövrdə ümumilkdə 41 sərəncam imzalanmışdır. Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə zidd olaraq, hazırda yeganə Azərbaycan Bayrağı ordenli şəhid-müəllimə aid 83 saylı sərəncam icra edilməmişdir. Bununla bağlı mən Şirvan İnzibati Məhkəməsinə iddia ərizəsi ilə müraciət etmişəm və məhkəmə cavabdeh qurum - İmişli rayon İcra Hakimiyyətinin üzərinə müəyyən öhdəliklərin qoyulması ilə bağlı dövlətin adından 27.07.2021-ci il tarixli 2-1 (120)-796/2021 saylı məhkəmə qərarı qəbul etmişdir.

Qardaşım "N" saylı hərbi hissənin təqdimatı əsasında Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən Vətən qarşısında xüsusi xidmətlərinə görə Azərbaycan Bayrağı ordeni ilə təltif edilmiş və orden şəhidin müəllim işlədiyi məktəbdə yaxınlarına (oğluma) təqdim edilmişdir. Mən cənab Prezidentə şəhidin ailə üzvləri adından bir daha təşəkkür edirəm.

Onu da qeyd etmək istəyirəm ki, 4 ilə yaxındır şəhidə aid dövlətin adından qəbul edilmiş 2-1(120)-796/2021 saylı məhkəmə qərarı İmişli rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev və Şirvan İnzibati Məhkəməsinin sədri Fehruz Abbasovun qarşılıqlı razılığı ilə icra edilmir. Qanuni qüvvəyə minmiş məhkəmə qərarının icra edilməməsinə görə, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 306-cı maddəsi mövcuddur və bu səbəbdən də icra başçısının məhkəmə sədri ilə müəyyən qarşılıqlı anlaşması zərurəti yaranır.

**Qərə 4 ilə yaxındır qanuni qüvvəyə minib, amma...**

İcra başçılarının hakimlərdən fərqli olaraq, toxunulmazlıq hüququnun olmaması səbəbindən, Elçin Rzayevin məhkəmə sədri Fehruz Abbasovla müəyyən danışıqlara getməsi ehtimal olunur. Yəni icra başçısı Elçin Rzayev vəzifəli şəxs olaraq dövlətin adından qəbul edilmiş məhkəmə qərarını icra etməməsinə görə, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 306.2-ci maddəsinə əsasən cinayət məsuliyyəti daşıdığından, çıxış yolunu məhkəmə sədrinin toxunulmazlıq hüququndan şərikli istifadəsində görür. Beləliklə, məhkəmə sədri Fehruz Abbasov bütün məsuliyyətləri öz üzərinə götürərək, icra başçısı Elçin Rzayevin Cinayət Məcəlləsinin 306.2-ci maddəsi ilə üz-üzə gəlməməsi üçün 4 ilə yaxındır qanuni qüvvəyə minmiş, dövlətin adından qəbul edilmiş məhkəmə qərarını icraya göndərmir. Bununla da Şirvan İnzibati Məhkəməsinin sədri Fehruz Abbasov törətdiyi qanunsuz əməllə, yəni qanuni qüvvəyə minmiş məhkəmə qərarını icraya göndərməməklə icra başçısının adının Prezident Administrasiyasında, Baş Prokurorluqda, Ədliyyə Nazirliyində və mediada hallanmasının qarşısını alır.

Bəllidir ki, hər bir vəzifəli şəxs öz səlahiyyətlərindən sui-istifadəyə görə məsuliyyət daşıyır. Belə ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 308, 308.1-ci maddələrinə əsasən, vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsi, fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda - iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya


1/7 2-1-120-822-2022-qərar...

həqiqi iddia ərizəsi məhkəmə sədri tərəfindən gizlədilən QANUNSUZ ŞƏKİLDƏ iddia ərizəsi olmadan DÖVLƏTİN ADINDAN QƏBUL EDİLMİŞ Məhkəmə AKTI

ID: 1757501

Azərbaycan Respublikası adından

QƏRARDAD

ŞİRVAN İNZİBATİ MƏHKƏMƏSİ

İş № 2-1(120)-822/2022 24.05.2022-ci il

Şirvan İnzibati Məhkəməsinin hakimi Həsənov Samir Firdusi oğlu iddiaçı Abuzərov Daşqın Abuzər oğlunun cavabdeh İmişli rayon İcra və Probasiya şöbəsinə qarşı "icra məmurunun əməllərində cinayət tərkibi varsa, sənədlər müvafiq hüquq-mühafizə orqanlarına göndərilməsini və ya ona qarşı hüquq pozuntusu varsa həmin icra məmurunun ağlabatan məbləğdə təzminatın müəyyənləşdirilməsi və ona rəsmi hüquqi yardım göstərməklə təzminat müraciətinin yazılmasına şərait yaratmağınızı və həmin təzminatın ödənilməsini, həmçinin iddiaya Şirvan İnzibati Məhkəməsində baxılması, hansısa mübahisəli anlar, tərəddüdlər və ya Dillema şəraiti yaranacağı təqdirdə Konstitusiya Məhkəməsinə şərh verilməsi üçün göndərilməsi" barədə iddia tələbinə dair iddia ərizəsini, ona əlavə edilmiş sənədləri və iş materiallarını nəzərdən keçirib müəyyən etdi,

**Təsviri hissə:**

İddiaçı Abuzərov Daşqın Abuzər oğlu cavabdeh İmişli rayon İcra və Probasiya şöbəsinə qarşı "icra məmurunun əməllərində cinayət tərkibi varsa, sənədlər müvafiq hüquq-mühafizə orqanlarına göndərilməsini və ya ona qarşı hüquq pozuntusu varsa həmin icra məmurunun ağlabatan məbləğdə təzminatın müəyyənləşdirilməsi və ona rəsmi hüquqi yardım göstərməklə təzminat müraciətinin yazılmasına şərait yaratmağınızı və həmin təzminatın ödənilməsini, həmçinin iddiaya Şirvan İnzibati Məhkəməsində baxılması, hansısa mübahisəli anlar, tərəddüdlər vəya Dillema şəraiti yaranacağı təqdirdə Konstitusiya Məhkəməsinə şərh verilməsi üçün göndərilməsi" barədə qərar qəbul edilməsini xahiş etmişdir.

İddia ərizəsi inzibati mübahisə kimi qeydiyyata alınaraq məhkəməyə daxil olduğu gündən icraata qəbul edilmiş sayılmışdır.

Şirvan İnzibati Məhkəməsinin 17 yanvar 2022-ci il tarixli, 2-1(120)-822/2022 nömrəli məktubu ilə iddiaçı Abuzərov Daşqın Abuzər oğluna hüquqi yardım edilmişdir.

**Əsaslandırıcı hissə:**

Məhkəmə iş materiallarını araşdıraraq hesab edir ki, iddiaya inzibati icraat qaydasında baxılması mümkün sayılmamalıdır.

Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı: Hakim - Samir Həsənov
Məhkəmənin adı: Şirvan İnzibati Məhkəməsi
Sənədin elektron yüklənmə ünvanı:
http://e-mehkeme.gov.az/signed/ShowEcoc?guid=9f6636f6fd8146369c2b9406dba98c1e

S/N: 003

1 / 7

Belə ki, iş materiallarında olan İmişli rayon Məhkəməsinin 09 oktyabr 2015-ci il tarixli, 2(036)-4715/2015 nömrəli məhkəmə əmrindən görünür ki, kreditor "Unibank" KB ASC-nin ərizəsinin təmin olunması, borclular Abuzərov Daşqın Abuzər oğlundan (İmişli rayonu, Qaravəlli kəndi) və Quluyev Rauf Ramiz oğlundan (İmişli rayonu, Qaravəlli kəndi) müştərək qaydada 2936.46 manat əsas borc, 210.15 manat faiz borc, 70.53 manat cərimə, cəmi 3217.14 (üç min iki

Yoshiro
Yoshiro TV ler,
Shop Now



AZƏRBAYCAN RESPUBLİKASI
BAKI İNZİBATİ MƏHKƏMƏSİ

AZ 1022, Bakı ş., Nəsimi rayonu, N.Vəzirov, 56
www.courts.gov.az/bakuadministrative
Telefon: (012) 441-33-90 Fax: (012) 441-60-90
contact@bakuadministrativecourt.gov.az

2-1(112)-9196/2021 21.10.2024-cü il

Abuzərov Daşqın Abuzər oğluna
Ünvan: Bakı şəhəri, Xətai rayonu, H.Aslanov qəsəbəsi, Sahib Humbətov küçəsi, 11

Bakı İnzibati Məhkəməsinə daxil olmuş ərizənizə baxılmışdır.
Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin 75.3-cü maddəsinə əsasən məhkəmə qərarı, bu Məcəllənin 20-ci maddəsində nəzərdə tutulmuş qaydada inzibati məhkəmə icraatının iştirakçılarına təqdim edilir.
İş üzrə qəbul edilmiş məhkəmə aktları inzibati məhkəmə icraatının iştirakçısı olmayan şəxslərə təqdim edilməmişdir.
Həmçinin bildiririk ki, Şirvan İnzibati Məhkəməsi tərəfindən məhkəməyə unvanlanmış sorğu əsasında məhkəmə aktları barədə müvafiq məlumat Şirvan İnzibati Məhkəməsinə təqdim edilmişdir.
Nəzərə almağınız xahiş olunur.

Hakim Günel Sevdimalıyeva

# toxunulmazlıq hüququna “şərik çıxıb”

## “Çox təəssüflər olsun ki, məhkəmə qərarının "icrası" Beynəlxalq Universitet səviyyəsindən o tərəfə keçmir”

əmlakı müsadirə olunmaqla üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Göründüyü kimi, məhkəmə sədri Cinayət Məcəlləsinin 308-ci maddəsinin tələblərini pozmaqla, öz vəzifə səlahiyyətlərindən sui-istifadə edərək, özünün toxunulmazlıq hüququndan digər bir şəxsin - icra başçısının da istifadə etməsinə şərait yaradır və həmin şəxsin Cinayət Məcəlləsinin 306.2-ci bəndinə əsasən əsaslı şübhələr olan cinayət əməlini 4 ilə yaxın bir müddət ərzində ört-basdır edir.

**Azərbaycan Respublikası Konstitusiyasının 129-cu maddəsinin I və II hissəsinə görə:**

***I.*** *Məhkəmənin qəbul etdiyi qərarlar dövlətin adından çıxarılır və onların icrası məcburidir.*

***II.*** *Məhkəmə qərarının icra olunmaması qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.*

Cinayət Məcəlləsinin 306-cı (məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmək) və 306.1-ci maddəsi (qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini, hökmünü, qərardadını, qərarını və ya əmrini qərəzli olaraq icra etməmə və ya həmin məhkəmə aktlarının icrasına maneçilik törətmə) tətbiq olunduqda isə - iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya üç yüz iyirmi saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya eyni müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Eyni əməllər vəzifəli şəxs tərəfindən törədildikdə (306.2-ci maddə) - üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə beş min manatdan yeddi min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ildən beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

### İcra Hakimiyyətinin şöbə müdiri hakimin əvəzindən “qərar verir”

Hazırda Şirvan İnzibati Məhkəməsində İmişli rayon İcra Hakimiyyəti, əslində isə icra başçısı Elçin Rzayevlə bağlı iki məhkəmə işi mövcuddur. Haqqında iki məhkəmə işi olan icra başçısı çıxılmaz vəziyyətdə qalır və mənə qarşı əks-kampaniyaya, hakimə saxta və qanunsuz sənədlər göndərməyə başlayır. Elçin Rzayev qanunsuz şəkildə məhkəmə aktı əldə edir, lakin həmin məhkəmə aktının saxta və ya etibarsız olduğuna əsaslı şübhələr olur. Bunu görən Elçin Rzayev tabeçiliyində olan işçi - Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Rüstəmli Tahirə Ağamir qızını qanunsuz əməl törətməyə məcbur edir. İcra başçısı Tahirə Rüstəmlini məcbur edir ki, həmin şübhəli məhkəmə aktına ”İmişli rayon İcra Hakimiyyətinin Azərbaycan Respublikası İmişli Rayon İcra Hakimiyyətinin Sənədlərlə və Vətəndaşların Müraciətləri ilə iş şöbəsi” möhürünü vursun. Məhkəmə aktının ”əsli ilə düzdür” möhürünü vurmaqla icra hakimiyyəti qanunsuz əmələ imza atır. Əslində isə, bu, məhkəmə sədrinin səlahiyyəti çərçivəsində təmin edilən bir məsələdir.



Beləliklə, işini itirmək təhlükəsi ilə üz-üzə qalan şöbə müdiri Tahirə Rüstəmli qanunsuz şəkildə məhkəmə sənədinin saxtalığına əsaslı şübhələr olan sənədə ”əsli ilə düzdür” möhürünü vurur və həmin sənəd etiraz ərizəsinə qoşma sənəd kimi məhkəməyə göndərilir(həmin sənədi qoşmada sizə təqdim edirəm).

Bu möhürün qanunsuzluğu və saxtalığı barədə mənim Şirvan İnzibati Məhkəməsinin sədri Fehruz Abbasova və işi aparan hakim Pərvanə Qurbanovaya rəsmi müraciətlərim mövcuddur. Bütün müraciətlərim cavabsız və nəticəsizdir. Məlumat üçün bildirirəm ki, həmin şübhəli məhkəmə aktında eyni nömrəli məhkəmə aktında iki fərqli iddiaçı ad-soyadları vardır.

İşi aparan hakim Pərvanə Qurbanova İnzibati məhkəmə icraatında iddianın mümkünlüyünə dair Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 10 aprel 2015-ci il tarixli 5 saylı qərarının 3.4-cü bəndini pozaraq, nəinki öz təşəbbüsü ilə müəyyən yazışmalar aparmış, hətta mənim ona ünvanladığım 20-dən artıq müraciət və vəsatətlərimə münasibət bildirməmiş və qanunsuz olaraq şəhidin əleyhinə qərar qəbul etmişdir. Hansı ki, cavbdeh İmişli rayon İcra Hakimiyyəti hakimin sərəncamına məhəl qoymur, iclasa nümayəndə və hər hansı məktub göndərmir, mən cərimə tələb etsəm də, hakim bunu etmir.

> Bu möhürün qanunsuzluğu və saxtalığı barədə mənim Şirvan İnzibati Məhkəməsinin sədri Fehruz Abbasova və işi aparan hakim Pərvanə Qurbanovaya rəsmi müraciətlərim mövcuddur. Bütün müraciətlərim cavabsız və nəticəsizdir. Məlumat üçün bildirirəm ki, həmin şübhəli məhkəmə aktında eyni nömrəli məhkəmə aktında iki fərqli iddiaçı ad-soyadları vardır...

### İcra başçısı məhkəmə iclasını necə izləmək istəyib?..

Növbəti, 24.09.2024-ci il tarixli məhkəmə iclasına cavabdeh qurum nümayəndə göndərir və mən iclasın gedişi zamanı həmin şəxsin üzərində mobil telefon aşkar edirəm. Deməli, icra başçısı Elçin Rzayev həmin şəxsin telefonu vasitəsilə kabinetində oturub, Şirvanda keçirilən məhkəmə iclasını izləməli imiş. Bu zaman akt yazılmasını tələb edirəm. Məhkəmə sədri və köməkçisi dəfələrlə akt yazılacağına söz versə də, buna əməl etmirlər.

Məhkəmə sədrinin köməkçisi telefon dialoqunda mənə bildirdi ki, həmin şəxsə dəfələrlə zəng edilsə də, məhkəməyə gəlmir. Mən məhkəmə sədrinə rəsmi məktub ünvanlayaraq, həmin şəxsə rəsmi bildiriş göndərməklə məhkəməyə gəlməsini xahiş etdim. Fakt budur ki, məhkəmə sədri açıq-aşkar icra başçısının nümayəndəsini müdafiə edir.

Beləliklə, Şirvan İnzibati Məhkəməsinin sədri Abbasov Fehruz Novruz oğlu Məhkəmələr və hakimlər haqqında qanunun 101-ci maddəsinə əsasən hakimlərə şamil olunan toxunulmazlıq hüququna icra başçısını da ”qonaq” etmiş və məhkəmə sədri bu hüquqdan sui-istifadı edərək, şəxsi məqsədləri naminə icra başçısının da bu toxunulmazlıq hüququndan şərikli istifadəsinə şərait yaratmışdır.

Mən sübut üçün Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə rəsmi ərizə ilə müraciət etdim. Şirvan İnzibati Məhkəməsindən və İmişli rayon İcra Hakimiyyətindən fərqli olaraq, Ədliyyə Nazirliyinin müvafiq şöbəsi müraciətimə qısa zaman ərzində, 22.10.2024-ci il tarixində rəsmi cavab göndərmiş və məlum olmuşdur ki, həqiqətən də (120)-796/2021 saylı qərar şöbənin icraatına daxil edilməmişdir.

### 28 yaşında ABU-nin diplomunu alan məhkəmə sədri

Ləğv edilmiş Azərbaycan Beynəlxalq Universitetində 28 yaşında ilk dəfə tələbə adı qazanan və həmin universitetinin məzunu Şirvan İnzibati Məhkəməsinin sədri Abbasov Fehruz Novruz oğluna 3 (üç) il ərzində şəhidə aid məhkəmə qərarının icrası ilə bağlı saysız-hesabsız müraciətlərim mövcuddur. Çox təəssüflər olsun ki, məhkəmə qərarının ”icrası” Beynəlxalq Universitet səviyyəsindən o tərəfə keçmir.

Görün nə günə qalmışıq ki, Vətən qarşısında xüsusi xidmətləri olan və Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən Azərbaycan Bayrağı ordeni ilə təltif edilən şəhidə aid məhkəmə qərarı icra olunmur. Bu qərarı icra etməyən və ya etmək istəməyən şəxslər isə - rüşvət, korrupsiya, saxta diplom və sairə görə ləğv edilən, rektoru isə Fransaya qaçan və hal-hazırda İNTERPOLda axtarışda olan Azərbaycan Beynəlxalq Universitetinin 28 yaşında ilk dəfə tələbə adı qazanan məzunu, Şirvan İnzibati Məhkəməsinin sədri Abbasov Fehruz Novruz oğlu və Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən 05 noyabr 2022-ci il tarixində Azərbaycan Bayrağı ordeni ilə təltif edilmiş şəhidin ordenini onun ailəsinə vermək istəməyən, bilərəkdən gecikdirən şəxs - İmişli rayon İcra Hakimiyyətinin başçısı Rzayev Elçin Adil oğludur. Hansı ki, o, 09 iyul 2024-ci il tarixində 7 rayondan 200 şəhid anasının, o cümlədən qəhrəman generalımız Polad Həşimovun anası Səmayə ananın İmişliyə gəlişi zamanı, özü də daxil olmaqla, 35 nəfərlik icra hakimiyyəti strukturundan bir nəfər də olsun belə, hətta icra hakimiyyətinin Vətən Muharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsi də qarşılamayan, hörmətsizlik edərək şəhid analarının iştirak etdiyi ”ŞƏHİDLƏR BULAĞI”nın açılışında iştirak etməyən, həmçinin, tədbirdən sona verilən ehsan süfrəsində 35 nəfərlik icra hakimiyyəti strukturundan bir nəfər belə belə iştirak etməyən, buna baxmayaraq həmin şəhid ailələrinin hesabına milyarder olmaq məqsədilə onların yaşadığı və şəhid adı verilmiş küçələrdə yolların əsaslı təmiri üçün 500.665,74 manat pulu əldə etmək məqsədilə bir ayda bir neçə dəfə bu pula əl atan, lakin əli Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi tərəfindən 03 oktyabr 2024-cü il tarixində AİBNDX/SQ-9917/2024 nömrəli qərarla boşa çıxan şəxsdir.

**Hazırladı: Jalə FAMİLQIZI**

**Redaksiyadan: Mövzunu davam etdirəcəyik. Qarşı tərəfin mövqeyini də dərc etməyə hazırıq.**

# Sadiqin Vətənə sevgi payı


Rəhimov Sadiq Nadir oğlu

**44 günlük haqq savaşımızda Sadiq Nadir oğlu Rəhimov sinəsini Vətəninə sipər etməklə, adını tarixə yazdı. Şərəfli ölümü ilə ölümsüzlüyə qovuşan Sadiq indi xalqımızın fəxridir. Bəli, Sadiq kimi qeyrətli oğullar 30 il düşmən əsarətində olan müqəddəs Vətən torpaqlarına axıtdığı qanı ilə bir daha xalqımızın mənliyini, kimliyini dünyaya bəlli etdilər.**

1997-ci ildə Lerik rayonunun Veri-Əliabadı kəndində anadan olmuş Sadiq Rəhimov lap kiçik yaşlarında doğma Azərbaycana bağlanıb. Boy ata-ata mənfur düşmənin işğalçılıq hərəkətlərini heç cür vicdanına sığışdıra bilməyib. Odur ki, orta məktəbi bitirərək, ordu sıralarına gedib, cəbhə bölgəsində Vətənini hər şeydən üstün tutmaqla, ona ləyaqətlə xidmət edib. Və Qarabağımızın işğaldan azad olması naminə hər an yağı düşmənlə döyüşə can atıb.



Əsgərlikdən sonra evə dönən Sadiq heç vaxt rahatlıq tapmayıb. Axı, düşməndən alacağı öcü qalırdı. Odur ki, hər zaman həmin qisas gününü gözləyib. Nəhayət, 2020-ci ilin 27 sentyabrında arzuladığı məqam yetişib. Vətən müharibəsinin ilk günündə Sadiq digər qeyrətli oğullar kimi, silah götürərək, ön cəbhəyə gedib. İştirak etdiyi Füzuli və Xocavənd uğrunda ağır ölüm-dirim savaşlarında rəşadət nümunəsi göstərərək, erməni dığalarına ciddi itkilər yaşadıb. Döyüş meydanında yağıya qan qusdurmaqla yanaşı, özü də şəhidlik zirvəsinə ucalıb. Bununla da Vətənini canından artıq sevən qəhrəman Sadiq könüllərə köç edərək əlçatmaz, üņyetməz bir ömür qazanıb.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının medallarla təltif edilməsi haqqında Prezident İlham Əliyevin imzaladığı sərəncamlara əsasən Sadiq Rəhimov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", Füzulinin, Xocavəndin və Şuşanın azadlığına görə medalları ilə təltif olunub.

Leriklilər Azərbaycanımızın qürur yeri olan zəfər şəhidi Sadiq Rəhimovun xatirəsini əziz tutmağı özlərinə müqəddəs borc bilir, həmişə onu böyük ehtiramla yada edirlər. Şəhidlik zirvəsinə ucalmasının dördüncü ildönümündə rayon rəsmiləri, ictimaiyyət nümayəndələri, kənd sakinləri və şəhidin ailə üzvləri ölümsüzlüyə qovuşan qəhrəmanın məzarına baş çəkdilər, ehtiram əlaməti olaraq önünə gül-çiçək dəstələri düzdülər. Bu zaman bildirildi ki, şəhid Sadiqin ömür yolu nə qədər qısa olsa da, gələcək nəsillərimiz üçün örnək olacaq bir tarix yazıb. Vətən, torpaq yolunda canından keçənlər heç vaxt ölmürlər.

# Şəhid Samir Hüseynovun 30 yaşı qeyd olundu



44 günlük haqq savaşımızda yağıya qarşı döyüşərək qəhrəmancasına şəhidlik zirvəsinə ucalan minlərlə qeyrətli oğullarımızdan biri də Samir Hüseynovdur. Bu günlərdə Vətən sevdalısının 30 yaşı adına layiq qeyd olundu.

Samir Əlizadə oğlu Hüseynov 1994-ci il noyabrın 15-də Lerik rayonunun Vov kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra, 2013-cü ilin yanvar ayında ordu sıralarına çağırılıb. Gəncədə yerləşən "N" saylı hərbi hissədə Vətənin keşiyində durub. 2014-cü ilin iyul ayında hərbi xidmətini başa vurduqdan sonra Rusiyaya gedərək bir müddət orada işləyib. 2016-cı ildə könüllü olaraq yenidən orduya qayıdıb və Xüsusi Təyinatlı Qüvvələrin müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq işləməyə başlayıb. Vətən müharibəsi zamanı qəhrəman Samir Hüseynov Cəbrayılın, Füzulinin, Zəngilanın, Xocavəndin, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. 2020-ci ildə noyabrın 10-u Şuşa istiqamətində erməni dığaların xeyli zabitini məhv edərək qeyri-bərabər savaşda şəhadətə qovuşub. Şərəfli ölümü ilə özünə ürəklərdə adidə ucaldan Samir Hüseynov ölümündən sonra dövlət tərəfindən III dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", Şuşanın, Cəbrayılın, Xocavəndin, Füzulinin azadlığına görə medalları ilə təltif edilib.

**Səhifəni hazırladı: Zəfər ORUCOĞLU**

# Şərəfli tariximizin qəhrəman oğlu

## Fariz Zülfüqarzadənin ad günü qeyd olundu

**Azərbaycan Silahlı Qüvvələrinin Vətən torpaqlarının işğaldan azad edilməsi uğrunda canından keçən müddətdən artıq xidmət edən hərbi qulluqçusu, şəhidi Fariz Fərhad oğlu Zülfüqarzadə üņyetməz ulduzların sırasından gəlib ömrünün 32-ci ilinə çatdı.**

Əlbəttə, nəsibi şəhidlik zirvəsi olanlar heç zaman ölmürlər. Onlar ürəklərdə yaşamaqla əbədi ulduzlu bir dünya qazanırlar.

Farizin doğum günündə də xeyli sayda adam onun boya-başa çatdığı halal ata ocağına gəlmişdi. Onlar ölümsüzlüyə qovuşan öz qəhrəman oğlunu böyük məhəbbətlə, ehtiramla yad etdilər. Çıxışlar zamanı Farizin Vətənə, doğma torpağına sonsuz sevgisindən, dosta sədaqətindən, qeyriadi bacarıq və qabiliyyətindən qürurla söz açdılar. O da bildirildi ki, Fariz bu işıqlı dünyada az yaşadı, amma gələcək nəsillər üçün örnək olacaq bir tarix yazdı. Qərinələr keçəcək Fariz mənən qəlblərdə yaşayacaq...

Lənkəran şəhərində anadan olan Fariz Zülfüqarzadə bir müddət ailəsi ilə Rusiyada yaşayıb. Ürəyi



Azərbaycana sevdalanan, işğalçı düşmənə qarşı barışmaz mövqe ortaya qoyan Fariz doğma şəhərinə qayıdıb. Yağıdan qisas almaq məqsədilə 2012-ci ildə ordu sıralarına yollanıb. Cəbhə bölgəsində Vətən qarşısında müqəddəs övladlıq borcunu yerinə yetirdiyi zaman son dərəcə mərd, cəsur və ağıllı bir gənc olaraq böyük nüfuz qazanıb. Ən əsası nifrət bəslədiyi düşməni döyüş meydanda əzməkdən ötrü hərbi təlimlərə həvəslə qatılıb və bütün sınaqlarda uğur qazanıb. Qəlbi də həmişə Qarabağı azad edib evə dönmək arzusu ilə döyünüb.

Ordudan üzüağ tərxis olunan Fariz evdə qərar tuta bilmir, yerini səngərlərdə görüb. Bu, onun yenidən şanlı formanı geyinməsinə səbəb olub. Yəni 2015-ci ilin mart ayından müddətdən artıq xidmət edən hərbi qulluqçu qismində Vətənin keşiyində durub. İşğalçı dığalardan qisas alacağı günü gözləməklə tankçı peşəsinə mükəmməl yiyələnib. Aprel döyüşlərində ürəyindən keçənləri yağıya göstərə bilib. Dığaları biçib yerə tökməklə Lələ təpəyə üçrəngli qələbə bayrağımızı sancanların önündə gedib...

Azərbaycan xalqının tarixinə qeyrət, hünər səhifəsi kimi yazılan 44 günlük Vətən müharibəsi zamanı Silahlı Qüvvələrin sərrast tankçısı olan Fariz Zülfüqarzadə Füzuli, Zəngilan, Qubadlı uğrunda gedən döyüşlərdə düşmənin zirehli texnikalarını və atəş məntəqələrini darmadağın edib. Ağır müharibə meydanlarında qəhrəman tankçı 2 dəfə yaralanıb. Lakin savaşdan qalmayıb, hər dəfə də düşmənin üzərinə qartal tək şığıyıb.

Sonuncu döyüşünü oktyabr ayında Qubadlı rayonunda keçirib. 20 gün tankı düşmən tərəfindən hədəfə alınsa da, Fariz həmişə düşmənə sarsıdıcı zərbələr endirib. Düşmən tərəfindən vurulan tankın yaralı heyətini xilas etsə də, o, öz həyatını canından artıq sevdiyi Vətənin azadlığı uğrunda qurban verib.

Fariz Zülfüqarzadə Lənkəran şəhərində torpağa tapşırılıb. Canı, qanı bahasına şanlı tariximizi yazan qəhrəman döyüşçü dövlət tərəfindən ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", Füzulinin və Qubadlının azadlığına görə medalları ilə təltif olunub.

**Zəfər ORUCOĞLU**

# Vətəni canından çox sevənlər...

**Elçin Zakir oğlu Ağayev 44 günlük haqq savaşımızda son damla qanına qədər yağıya qarşı vuruşaraq, Vətənin sədaqətli övladı kimi adını tarixin şərəfli səhifəsinə yazmağı bacarıb. Odur ki, Cəlilabad rayonunun Günəşli kəndində boya-baş çatan Elçin 27 yaşda bu dünyadan köçsə də, uğrunda şəhid olduğu Vətənin hər daşında, qayasında, ən əsası xalqının ürəyindədir.**

Doğma Azərbaycana sevgi lap kiçik vaxtlardan Elçinin ürəyinə hakim kəsilib. Bu sevgi ilə böyüdüyü üçün müstəqil həyata qədəm qoyanı tayqulaq Andranikin törəmələrinin Qarabağa təcavüzünü məğrur vicdanına sığışdıra bilməyib. Və məqamında döyüş meydanında yağıdan qisas almaq məqsədilə gələcək həyatını hərbiyə bağlamaq istəyib.

2010-cu ildə Heydər Əliyev adına Ali məktəbə daxil olub. 2015-ci ildə təhsilini başa vurub və peşəkar hərbçi olaraq Vətənin keşiyində durub. Qısa zaman kəsiyində saf vicdanı, cəsarəti, vətənpərvərliyi onu əsgərləri, zabitlərin sevimlisinə çevirib. Əsgərləri öz komandirindən Vətəni necə sevməyi, doğma torpağı necə qorumağı öyrəniblər.

Bir ildən sonra Elçin öz xahişi ilə cəbhə bölgəsinə gedib, yağı düşmənlə qarşı-qarşıya dayanıb. Əzəli yurd yerimiz Qarabağın azadlığı naminə



polad sinəsini ona sipər etməyə hazır olub. 4 il burada bölmə komandir vəzifəsini şərəflə yerinə yetirib. Özündən böyük komandirlərin bütün tapşırığını qeyd-şərtsiz, məsuliyyətlə, operativ və dəqiqliklə görüb. Erməni dığalarını məhv edib Şuşada olmaq istəyi ilə ürəyi döyünüb. Elə bütün bunlara görə keçdiyi təlimlərdən ən yaxşı döyüş hazırlığı qazanıb. Mükəmməl hərbçi kimi düşmən üzərinə gedib ondan qisas alacağı məqamı gözləyib.

Nəhayət, 2020-ci il 27 sentyabrda hər bir qeyrətli Azərbaycan oğlunun arzuladığı gün gəlib. Qəlbində yurd məhəbbəti, əlində silah kapitan Elçin Ağayev odlu-alovlu səngərdə düşmənə meydan oxuyub. Talış kəndinin, Suqovuşanın və Laçının azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşub. İgid kapitan səngərdən-səngərə addımlayıb, hər qələbə qazananda ürəyinə yeni təpər, qollarına qeyri-adı güc gəlib. Vətənə olan ilahi məhəbbəti neçə-neçə ağır ölüm-dirim savaşında sübut edən Elçin oktyabrın 6-da Suqovuşanda dığalara qan qusdurub ürəyincə qisas aldıqdan sonra şəhid olub. Canını Vətəninə fəda etməklə xalqın qəlbində yenidən dünyaya gələn kapitan Elçin Ağayevin qəhrəmanlığı dövlət tərəfindən "İgidliyə görə", "Vətən uğrunda", Laçının və Suqovuşanın azadlığına görə medalları ilə təltif edilib.

Şəhidin atası Zakir kişi deyir:- Təkcə mən yox, bütün Azərbaycan xalqı oğlumla qürur duyur. O, Vətənini çox sevirdi, hətta onun yolunda ölməyi şərəf sayırdı.

Arzusuna çatdı. Axıtdığı qan 30 il əsir düşən Qarabağımızda üçrəngli qələbə bayrağına döndü. Getməyi tez və şərəfli oldu. 3 körpəsi - oğlu Zakir, Nigar və üzünü görmədiyi körpə balası Şuşa bizlərə əmanət qaldı. Övladları ilə bağlı arzuları çox idi. Sonuncu dəfə evdən çıxanda mənim adımı daşıyan övladına - oğluna sarılaraq deyib ki, evin kişisi sənsən artıq. Ən çox ürəyi Şuşanın azadlığı ilə döyünürdü. Biz də oğlum şəhid olandan 58 gün sonra dünyaya gələn qızına Şuşa adını verdik...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Ekologiya və ətraf mühitin mühafizəsi**

# "Tanrıdan Xəzər boyda "hədiyyəmiz" var, lakin onu kanalizasiya yeri kimi görürük"

## Ekoloq Qorxmaz İbrahimli: "Bakı, Sumqayıt şəhərləri boşaldılıb, əhalinin müəyyən hissəsi regionlara yerləşdirilməlidir"

**Noyabrın 12-də Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimi keçirildi. Xatırladaq ki, ötən ilin dekabrında təxminən 200 ölkənin yekdil qərarı ilə COP29-a Azərbaycana ev sahibliyi etməsi haqda razılıq əld edilmişdi. Bakı son iki həftə ərzində "dünyanın mərkəzi" oldu və şəhər təqribən 70-80 min xarici qonağı qarşıladı.**

Azərbaycan indiyədək bir çox beynəlxalq tədbirlərə ev sahibliyi edib və onların öhdəsindən layiqincə gəlib. Lakin Prezident İlham Əliyevin də dediyi kimi, COP29 bu vaxta qədər keçirilmiş tədbirlərlə müqayisəyə gəlmir.

Xatırladaq ki, COP BMT İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. COP-un ilk tədbiri 1995-ci ilin martında Berlində baş tutub, katibliyi Bonn şəhərində yerləşir.

COP29 konfransına ev sahibliyini Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirmək olar. Bu missiyaya uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib.

İqlim dəyişiklikləri haqqında "Hürriyyət"ə danışan ekoloq Qorxmaz İbrahimli bildirir ki, bununla bağlı məsələlər indi-indi gündəmə gəlir: "Yəni ötən əsrin 70-ci illərinin sonuna qədər çevrəçilərin səsini demək olar ki, duymurdular. 1979-cu ildən başlayaraq, bu işlər Braziliyada, Almnaniyada və s. ölkələrdə davam etdi. Blirik ki, Almaniya COP-un baş qərargahına çevrilib. Bu ölkələr iqlim dəyişikliklər iməsələsinə yatırım etməyə başladılar.

Əlbəttə, belə demək olar ki, qlobal dəyişkliklər indi baş verməyib. Yer kürəsi yarandığı gündən bu dəyişikliklər baş verir. Yer kürəsində baş verən dəyişikliklər, məsələn, ildirim çaxması, vulkanlar, meşə yanğınları, daşqınlar, sellər, zəlzələlər məhz təbii iqlim dəyişikliyinə səbəb olan hadisələrdir. Düşünək ki, gündə 500 min ildırım çaxan yer kürəsində nələr baş verir? Xüsusilə tuncun, dəmirin kəşfindən sonra atmosferdə metan qazının çəkisi artmağa başladı. Metan qazının atmosferdə artması ilə bağlı havanın isinməsi ehtimal olunur. Bu gün də atmosferdəki qazların tərkibinə baxsaq, görərik ki, o qədər də dəyişiklik olmayıb. Dəyişikliklər daha çox insanların metan qazını havaya buraxması nəticəsində oldu. Yəni istixana qazlarının, müharibələrin, nüvə silahlarının sınaqdan keçirilməsi, atom bombasının partlaması və s. bizim böyük gördüyümüz kiçik dünyanın məhvə doğru getməsinə səbəb oldu.

İqlim dəyişiklikləri yer üzündə 300 ildir hərarət götürməyə başlayıb. Bilirik ki, 200 ilə yaxındır havanın hərarəti dəyişib. 20-ci əsrdə baş vermiş İkinci Dünya Müharibəsi, kürəsəl qəzalar havanın hərarətini dəyişdi. Sonra kömürün istifadəsi uzun illərdir metallurgiya sahəsində, metaləritmədə, nəqliyyatda, gəmilərdə yüz illərdir istifadə olunub. Nəticəsi də bugün göz qabağındadır".



> Əlbəttə, belə demək olar ki, qlobal dəyişkliklər indi baş verməyib. Yer kürəsi yarandığı gündən bu dəyişikliklər baş verir. Yer kürəsində baş verən dəyişikliklər, məsələn, ildirim çaxması, vulkanlar, meşə yanğınları, daşqınlar, sellər, zəlzələlər məhz təbii iqlim dəyişikliyinə səbəb olan hadisələrdir. Düşünək ki, gündə 500 min ildırım çaxan yer kürəsində nələr baş verir? Xüsusilə tuncun, dəmirin kəşfindən sonra atmosferdə metan qazının çəkisi artmağa başladı. Metan qazının atmosferdə artması ilə bağlı havanın isinməsi ehtimal olunur...

Ekoloq qeyd edir ki, bu vəziyyətdən çıxmaq üçün ekologiya qorunmalıdır: "Çevrəni qorumaq hər bir sakinin borcudur. Amma bunu nə dərəcədə anlayırıq, onu demək biraz çətindir.

COP 29, adından göründüyü kimi, 29-cu konfrans idi. COP 29 konfransının Azərbaycanda keçirilməsi Azərbaycanın tanıdılması baxımından hər birimizi məmnun edən hadisə oldu. Yer kürəsində kimsə qlobal istiləşmə ilə bağlı nəsə edirsə, buna sevinmək lazımdır. O cümlədən, COP 29-un Bakıda keçirilməsi də böyük bir hadisə idi və bunu alqışlamaq lazımdır.

Qlobal istiləşmənin önü alınmalıdır. 2030-cu ilə qədər 1,5 dərəcə aşağı salınmalı olan istilik, əksinə, bu il 1,3 dərəcə yüksəldi. Bu baxımdan, heç də durum yaxşı deyil.

Əlbəttə, COP 29 nəticəsində dünyadakı ekoloji tarazlıq düzəlməyəcək, havanın istiləşməsinin qarşısı alınmayacaq, amma bu, istər maddi, istər mənəvi, istər də maarifləndirmə baxımından çox önəmli bir addım oldu. Ümid edirəm ki, COP 29-un qəbul etdiyi sənədlər COP30-a qədər xeyli müzakirə olunacaq.

Son illər, yəni müstəqilliyimizi bərpa etdiyimiz, Sovet imperiyasından qopduğumuz müddətdən bu yana Azərbaycanda ekologiyaya, çevrəyə yüksək səviyyədə yatırım olunmadı. Əgər olmuşdusa, 90-cı illərdə biz görmədik. Xüsusilə ölkəmizdə urbanizasiya prosesi pozuldu. Müstəqilliyimizin ilk illərində Bakı və Abşeron yarımasında əhalı sıx məskunlaşdı. Bakının ətrafında olan yaşıllıqlar qırılıb, yerinə binalar tikilməyə başlanıldı. Bakının içərisində parklar, yaşıllıqlar gecə ilə məhv edildi, betonlaşdırıldı. Betonlaşma istiliyin birinci səbəbidir. Bu məsələlər, Bakı kimi səhra şəhərində yaşıllıqları qırmaq özü bir cinayətdir. Bakının dağlıq ərazilərini darmadağın etdik. Oranın flora və faunasını məhv etdik. Orada yaşayan endemik heyvan növləri itib getdi, heç kimin də vecinə olmadı. Biraz çevrə duyarlığı olmadığından, bu hadisələr baş verdi".

Qorxmaz İbrahimli vurğulayır ki, meşələrin qırıması faktı da diqqətdən qaçmamalıdır: "Birinci növbədə bölgələrdə qazlaşdırma olmalıdır. Meşələr təkcə qazdan istifadə edilməsinə görə qırılmır, eyni zamanda kömür hazırlanması üçün də ağaclar məhv edilir. Həmçinin, meşələri qırıb, yerində villalar, istirahət mərkəzləri tikilir. Bunların qarşısını almaq üçün hökumət qanunlar qəbul etməlidir. Tək meşələrin qırılması ilə iş bitmir, yenidən meşə salınmalıdır. İnsanlar mütləq maariflənməlidilər. İbtidai siniflərdə, bağçalarımızda təməlli tədris proqramları olmalıdır. Yəni milli ibtidai təhsil haqqında Azərbaycan Respublikasının gerçək qanunu hazırlanmalı, millətin müzakirəsinə verilməlidir. Hər bir fərd bu müzakirədə iştirak etməlidir. Milli ibtidai təhsilimiz olmadan biz bunu edə bilmərik. Bağçadan başlayıb, ibtidai sinif bitənə kimi bu millət təməlli təhsil almalıdır. Meşə zolaqları hər yerdə salınmalıdır. Görsəllik baxımından lazım deyil. "Mən gedib ağac əkdim" deməklə iş bitmir.

Bakı şəhəri, Abşeron yarımadasının əhalisi təşviqatla ölkənin inkişafı üçün yenidən regionlara bölünməlidir. Universitetlər lazımı əraziləri götürməli, orada işlər görməli, əgtraf yaşıllaşdırılmalıdır. Bunun üçün də könüllülük təbliğ olunmalıdır. Biz Masallının, Şamaxının, İsmayıllının meşələrindən torpağı yığıb, zəbt etdiyimiz torpaq sahələrinə səpirik ki, münbit torpaqlarımız olsun. Halbuki ekologiyaya ciddi zərər veririik. İllərdir Bakıya maşın-maşın, "Kamaz"-"Kamaz" torpaq daşınır. Bunu görmürükmü? Görürük. Amma biganəlik nəticəsində o məmurun vicdansızca söküb gətirdiyi torpaqdan istifadə etməsinə göz yumuruq. Halbuki, bir santimetr torpağın yaranmasına 100 il vaxt lazımdır. Söküb gətirirlər. Tanrının bizə verdiyi həmin torpaqları məhv edirik. Nəticədə nə baş verir? O torpaqlar səhralaşır. Günəşdən gələn enerji meşə olmadığına görə torpağa udulur və yerdə qalır, geri dönmür. Nəticədə torpağın hərarəti yüksəlir, atmosferin üst qatı isinir. Bu isə buxarlanmanı artırır və səhralaşmanın, çölləşmənin yaranmasına səbəb olur. Bunlar hamısı mütləq şəkildə təhsillə, maarifləndirmə ilə ortadan qaldırılmalıdır.

İnanıram ki, bu ekoloji problemləri aradan qaldırmaq mümkündür. Addım atmağa iradə lazımdır. Təkcə cərimələr tətbiq etməklə deyil, eyni zamanda belə şeylər təşviq olunmalıdır. Könüllülük təşviq olunmalıdır. Bakı, Sumqayıt şəhərləri qorunmalıdır. Bu şəhərlər boşaldılıb, əhalinin müəyyən hissəsi regionlara yerləşdirməlidirlər. Televiziya, şou proqramları ilə deyil, çevrəsəl qoruma ilə insan ömrünü rahat, fərəh edən işlər görmək lazımdır. Bu da könüllülük və maarifləndirmə ilə mümkündür".

Ekoloq deyir ki, ekologiya və ətraf mühitin qorunması mədəniyyət məsələsidir: "Bizim Xəzər dənizi boyda, necə deyərlər, Tanrı hədiyyəmiz var. Lakin biz onu kanalizasiya yeri kimi görürük. Halbuki o bizim sağlıq yerimizdir, qida mənbəyimizdir, bioloji müxtəlifliyin mənbəyidir. Orada müxtəlif çeşiddə balıq növləri, heyvanlar, quşlar yaşayır. Dənizin şəfa verən yosunları var. Biz bunları bilmirik. Onların məhv olunması üçün əlimizdən gələni edirik.

Vətəndaşların üzərinə öhdəlik qoymaq asan məsələdir. Necə ki, vətəndaşa cərimə tətbiq edirlər. Yerə zibil atan kimi cərimə yazırlar. Bununla iş olmur. Birinci növbədə məktəblərdə təbliğat aparılmalı, uşaqlara öyrədilməlidir. Qeyri-hökumət təşkilatları siyasi iradədən asılı olmamalıdır".

**Aynurə İSMAYIL**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur

# Qarabağ qazisindən Birinci vitse-prezidentə şok müraciət

**Qarabağ müharibəsi qazisi, Şabran rayonu, Çölquşçu kəndində yaşayan Şərifov Elmar Vüqar oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Saytımız vasitəsilə Birinci vitse-prezident Mehriban Əliyevaya müraciət edən şikayətçinin müraciətini olduğu kimi dərc edirik:**





## "Cəbhənin o tərəfindəki düşməni məhv etsək də, Bakıdakı düşmənlərimizə əsir düşdük"

**"Hörmətli Mehriban xanım!**

Hər bir Azərbaycan vətəndaşı kimi mən də Sizə humanizm və xeyirxahlıq mücəssəməsi, mədəniyyətimizin və mili-mənəvi dəyərlərimizin hamisi kimi dərin hörmət və ehtiramla yanaşır, Sizi hər bir vətən müharibəsi veteranı və qazisinin himayədarı bilir, Ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan Fondu isə ümid qapısı hesab edirik. Ona görə də vətən müharibəsi qazisi kimi məruz qaldığım məmur özbaşınalığı və silsilə qanunsuzluqlardan Sizə pənah gətirmişəm.

İlk növbədə haqq-ədalət naminə qeyd edim ki, ideya müəllifi olduğunuz "DOST" konsepsiyasının imkanları daxilində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən vətən müharibəsi qazilərinin məşğulluğu, maddi-məişət şəraitinin yaxşılaşdırılması, reabilitasiyası istiqamətində böyük işlər görülsə də məsuliyyət, vətənpərvərlik, dövlətçilik, milli-mənəvi dəyərlər, təəssübkeşlik hissləri olmayan, işlədiyi quruma təsadüf nəticəsində "paraşütlə", hansısa həmyerlilərinin himayəsi ilə "düşmüş" təsadüfi məmurların harınlığı və özbaşınalığı görülən işlərə, əldə edilən nailiyyətlərə kölgə salır.

Belə ki, mən Şərifov Elmar Vüqar oğlu 6 ildən artıq Silahlı Qüvvələrimizin tərkibində (DQ) MAXE (Müddətdən artıq hərbi qulluqçu) kimi qüsursuz hərbi xidmət etmiş, Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında qalib ordumuzun tərkibində Füzulinin, Cəbrayılın, Hadrutun və Şuşanın azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmiş, yaralanmış, rəşadətli döyüş yolu keçmiş hərbçiyəm.

Şuşadan ordu sıralarından tərxis olunduqdan sonra mülki həyatda ailəmi dolandırmaq və halal zəhmətimlə dolanışığımı təmin etmək üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyada idarənin sürücüsü kimi əmək fəaliyyətinə başladım. İşə başlayarkən işlə təmin olunmağıma sevinsəm də bu sevincim uzun çəkmədi və "qara günlər"imin məhz bundan sonra başladığını anladım.

Açığı, müharibədə döyüşərkən, elə bilirdim ki, dövlətimizin və xalqımızın düşmənləri təkcə cəbhənin o tərəfində, önümüzdəki erməni separatçılarıdır. Lakin bu qurumda işə başladıqdan sonra anladım ki, xalqımızın əsl və ən məkrli düşmənləri elə arxa cəbhədə, mülki həyatda imiş. Biz açıq döyüşlərdə erməni daşnaklarına əsir düşmək ehtimalını nəzərə alaraq son gülləmizi özümüz üçün saxlayırdıq, amma əfsuslar olsun ki, Bakının mərkəzində burdakı düşmənlərimizə əsir düşdüm. İndi Sizə 3 aylıq "əsirlik həyatımdan" bəhs edəcəyəm.

> Açığı, müharibədə döyüşərkən, elə bilirdim ki, dövlətimizin və xalqımızın düşmənləri təkcə cəbhənin o tərəfində, önümüzdəki erməni separatçılarıdır. Lakin bu qurumda işə başladıqdan sonra anladım ki, xalqımızın əsl və ən məkrli düşmənləri elə arxa cəbhədə, mülki həyatda imiş. Biz açıq döyüşlərdə erməni daşnaklarına əsir düşmək ehtimalını nəzərə alaraq son güllənizi özümüz üçün saxlayırdıq, amma əfsuslar olsun ki, Bakının mərkəzində burdakı düşmənlərimizə əsir düşdüm. İndi Sizə 3 aylıq "əsirlik həyatımdan" bəhs edəcəyəm...

Belə ki, Milli Observatoriyanın antimilli İdarə Heyətinin üzvü Hasil Vasif oğlu Abbasov məni, İdarənin balansında olan dövlət avtomobilini, dövlətin yanacağını gecə-gündüz demədən, şəxsi məqsədləri, qeyri-ənənəvi eyş-işrət dolu gecə həyatı (milli-mənəvi dəyərlərimiz və tərbiyəm imkan vermədiyindən təfsilatlı yazmağa xəcalət çəkirəm), yüngül həyat tərzi istiqamətində itismar etmiş, iş vaxtım güya 9.00-dan 18.00-a olmasına baxmayaraq, gecələr onu mütəmadi olaraq barlar, hotellər, kafelərdə müşayiət etməli olmuşam. Gecələrlə yanaşı, gündüzlər də H.Abbasov istismarçılığını davam etdirir, məni nəinki iş saatlarından sonra, iş saatlarında da müxtəlif şəxsi məqsədləri üçün istismar etmişdi. Bütün bunlar nəinki iş günlərində, həftəsonu, qeyri-iş günlərində də davam edirdi. Yuxu rejimim və sağlamlığım o qədər pozulmuşdu ki, bir şənbə günü məhz onun tapşırığı ilə, yenə də onun şəxsi işlərini icra etmək üçün gedəndə 20 Yanvar dairəsi adlanan ərazidə yorğunluqdan qəza törətdim və H.Abbasovun tələbi ilə təxminən öz vəsaitim hesabına 400 manat xərc çəkərək avtomobili təmir etdirdim. Danışanda vicdandan pafoslu cümlələr quran H.Abbasov isə 1 qəpik də olsa mənə kömək etmədi və mən borc-xərc hesabına, maddi-məişət şəraitim (daha doğrusu şəraitsizliyimin) acınacaqlı olmasına və kirayədə yaşamağıma baxmayaraq avtomobili özüm təmir etdirməli oldum. Sərxoş və namünasib vəziyyətdə olan H.Abbasov mütəmadi olaraq gecələr məni kirayə qaldığım evdən özünün ənənəvi (bəzən isə qeyri-ənənəvi) keyf çəkdiyi məkanlara çağırır, gecə ailəmi-uşağımı qoyub, ictimai nəqliyyat işləmədiyindən, uşağımın boğazından kəsib cibimdəki son manatımla taksi pulu verib onu ordan evinə və ya başqa haralarasa aparmalı olur, üzdəniraqlara bir gecədə səxavətlə yüzlərlə manat xərcləyən H.Abbasov mənə 4-5 manat taksi pulunu belə ödəmirdi.

Təbii ki, bütün bunları H.Abbasov Milli Observatoriyanın Antimilli İdarə Heyətinin sədri Səfərli Elnur Novruz oğlunun, onun himayəçisi və həmyerlisi, uşaqlıq dostu Nazirliyin Strateji planlaşdırma şöbəsinin müdir müavini Rəşad Zalovun, həmçinin həmin şöbənin keçmiş müdiri, yenə də sonuncularla eyni regiondan olan Əliyev Sadiq Cabir oğlunun himayəsi ilə edirdi. Elnur Səfərli heç bir elmi dərəcəsi, elmi nailiyyəti, müvafiq sahədə bircə səhifə nəinki elmi əsəri, heç mütaliəsi belə olmadan sonuncunun bizə məlum olmayan motivlə himayəsi ilə (hər halda "qara qaşına" görə yox) sosial sahədə beyin mərkəzinin, elmi mərkəzin İdarə Heyətinin sədri vəzifəsinə "paraşütlə" "düşmüşdü".

Təbii ki, avtoqəzadan sonra, üstəlik də qeyri-iş günlərindəki radarlara görə DYP-dən qeyri-iş günlərində və qeyri-iş saatlarında idarənin qarajında olmalı olan avtomobillərə görə inzibati xəta protokolları idarəyə daxil olduqca bütün bu əməllərin üstü açılmağa başlayanda, Hasil Abbasovun təklifi ilə Elnur Səfərli məni şahid saxlamamaq və iz itirmək üçün qanunsuz olaraq işdən çıxardı. Mənimlə kifayətlənməyən bu "cütlük" mənimlə ünsiyyəti olan bütün əməkdaşları müxtəlif bəhanələrlə işdən uzaqlaşdırmağa başladı (Bu proses hal-hazırda davam edir).

Aylardır ki, işsiz, qazancsız, himayə etməli olduğum valideynimin himayəsində çıxılmaz vəziyyətdə yaşamaqdayam. Məruz qaldığım bu istismar, haqsızlıq və qanunsuzluqlar nəticəsində həyata, yaşamağa bütün ümidlərimi itirmişəm. Artıq başa düşmüşəm ki, uğrunda canımı, qanımı fəda etməyə hazır olduğum, dəfələrlə ön cəbhədə ölümlə üz-üzə gəldiyim bu vətən sən demə bizim yox, Hasil Abbasov, Elnur Səfərli kimilərin imiş, onlar bu vətəndə ağa, biz isə kölə imişik.

Başa düşürəm ki, əslən, vaxtilə ərazisi işğal altında olmuş rayonlarımızdan birindən olmasına baxmayaraq, düşmən tapdağı altında qalmış ata-babalarının uyuduğu torpaqları qorumaq bir yana, adicə vətən qarşısında 1 illik icbari hərbi xidmətini belə etməkdən yayınmış, "dezertir" Elnur Səfərli hardan biləcəkdi oddan-alovdan keçmiş, həyatını təhlükəyə atmış bir vətən fədaisinin, müharibə veteranının dəyərini?

Görün, bir məmurun qudurğanlığına, harınlığına və acgözlüyünə baxın ki, aylarla işçini, özü də müharibə veteranını onun maddi vəziyyətinin ağır olmasından və işə möhtac olmasından sui-istifadə edib aylarla gec-gündüz şəxsi keyfin, zövqün və əyyaş həyat tərzin üçün istifadə edəsən, bununla yanaşı, dövlətin avtomobilini, yanacağı bu məqsədlə istismar edəsən və bütün bunlar ifşa olunarkən özünü "sudan quru çıxarmaq" üçün bir vətəndaşın çörəyinə, iş yerinə bais olasan. Əfsuslar olsun ki, adıçəkilən məmurlar öz himayədarları tərəfindən himayə olunur, onların qanunsuz əməlləri ört basdır edilir, etdiyim şikayətlərə və müraciətlərimə formal yanaşılır.

**Hörmətli Mehriban xanım,**

Səmimi olaraq etiraf edim ki, hal-hazırda işsizlik, yoxsulluq, imkansızlıq nəticəsində nə ailəmə-uşağıma atalıq, nə valideynlərimə övladlıq edə bilmirəm, əksinə onların əlinə baxmaq məcburiyyətində qalmışam. Hal-hazırda intihar etməkdən başqa çıxış yolum qalmayıb. Yeganə ümidim Sizədir.

Sizdən bir keçmiş hərbi qulluqçu, bir müharibə veteranı, bir vətəndaş kimi xahiş edirəm ki, şikayətimdə göstərilən halları şəxsi nəzarətinizə götürəsiniz və mənim işə bərpa olunmağıma, işlə təmin edilməyimə köməklik göstərəsiniz".

**"Hürriyyət"**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

**Tarix üzrə fəlsəfə doktoru Hacı Nərimanoğlunun mətbuatda dərc olunan "Türk dili və əlifbası Türk Dövlətləri Birliyinin ortaq dili, əlifbası olaraq qəbul edilməlidir", başlıqlı məqaləsi məni bir daha ümumtürk ədəbi dilinin yaradılmasının zəruriliyi, onun hansı əsaslar və qaydada formalaşdırılması məsələsinə qayıdaraq, adıçəkilən məqalədə irəli sürülən fikirlərə münasibəti bildirməyimi zəruri etdi. Müəllif bu məsələnin həll edilməsi haqqında hökm formasında başlıqda ifadə edilmiş fikrinin səbəbini qısa izah etdikdən sonra, bu variantın qəbul edilməsini zəruri səbəblər qismində müxtəlif amilləri sadalayaraq fikrini əsaslandırmağa çalışır.**



# Yenə də ümumtürk ədəbi dilimiz haqqında

Müəllif yazır: - «Anadolu türklərinin dili, əlifbası Türk Dövlətləri Birliyi, bütün dünya türkləri üçün ortaq dil və əlifba olmalıdır! Problemin yeganə mümkün həlli budur, əks halda Azərbaycan-Türkiyə nümunəsində olduğu kimi, bir neçə hərf, səs üstündə müzakirələr, baxışlar, yanaşmalar, lüzumsuz toplantılar illərlə uzanacaq».

Dilçi alimlərin ən böyük səhvi, zənnimcə, məhz məsələyə yanaşmadadır. Belə ki, bu günə qədər dilçi alimlərin görüşlərində müzakirə obyekti məhz hərflərin, səslərin üzərində qurulan baxışların diskussiyasından ibarət olduğundan, indiyə qədər az-çox əhəmiyyətli heç bir nəticə əldə edilməmişdir.

Bu günlərdə elektron KİV-lərdə 34 hərfdən ibarət ortaq türk əlifbasının qəbul edilməsi və bir neçə il sonra onun tətbiq ediləcəyi barədə böyük sevinclə məlumat yayıldı. Bu əlifbanın tədris və tətbiq edələcəyi halda belə, ləhcə və şivələri kənara qoyduqdan sonra, dünyada mövcud 28 türk dialektin hər birində başqa türk dili daşıyıcılarının başa düşməyəcəyi xeyli türk sözləri var. Təbii ki, onların hər birinin özünəməxsus yazı qaydaları da mövcuddur.

Ümumi ortaq əlifba hər bir türkə digər türk dialektində olan sözü oxumağa imkan versə də, o, onun mənasını başa düşməyəcək. Ən yaxşı halda onun mənasını hər kəs özü dərk etdiyi kimi yozacaq. Məhz bu səbəbdən, 28 türk dili dialektinin daşıyıcıları nəinki akademik səviyyədə dil bilgisi tələb edən ən müxtəlif elmi, texniki, texnoloji, ictimai sahələrdə, hətta adi məişət səviyyəsində inteqrasiyası çox böyük problemlərlə qarşılaşacaq. Bu baxımdan, hazırda ümumtürk əlifbasının qəbul edilməsi nəticə etibarilə sıfıra bərabərdir. Çünki hər hansı bir əlifba eyni məna yükü daşıyan sözlərin vahid yazı qaydaları çərçivəsində ifadə edilməsini təmin edən texniki vasitədir. Yəni əvvəl 28 türk dialektində mövcud olub, eyni məna, yaxud müxtəlif məna daşıyan sözlərin hamısı daşıdığı məna yükünə uyğun olaraq ayrı-ayrı qruplarda toplanaraq, eyni məna yükü daşıyan müxtəlif sözləri həmin mənanın müxtəlif durumlarına, hallarına şamil etməklə, on minlərlə və daha çox müddətdə təkamül nəticəsində yaranmış bir türk sözünü itirmədən belə, bu sözləri ifadə edə bilən əlifba və yazı qaydaları müəyyən etməklə xalis türk sözlərindən ibarət zəngin ümumtürk ədəbi dili yaratmaq olar.

Müəllif sonra yazır: «Dil, əlifba, tərəqqi, gəlişmənin müasir hədəflərə, dövrün çağırışlarına cavab verən zənginliyin simvolu, aynası olmalıdır». Hacı Nərimanoğlu bu fikrində tamamilə haqlıdır. Lakin o, dili ancaq tərəqqinin simvolu, aynası kimi görür. Hansı ki, dil məzmun etibarilə zəngin, tətbiq sahələri qədər daim inkişaf edən, onun daşıyıcılarının sayı qədər böyük olur. Bundan başqa, dilin ilkin əsas funksiyası onun daşıyıcılarını vahid, monolit millət olaraq birləşdirməsidir. Çünki hər hansı bir insan qrupu millət olmadan onun nə milli gəlişməsindən, nə də millətin mövcudluğundan söhbət gedə bilməz.

Sonra müəllif Türkiyə əhalisinin 85 milyon nəfər olduğunu, 1000-dək KİV-in, müasir madditexniki bazası olan təhsil müəssisələrinin, dünyanın başqa ölkədən gələn gənclərinə təhsil müəssisələrinin açıq olması, türk-islam ölkələrində Türkiyə seriallarının izlənilməsi, film və oxu materiallarının çox və keyfiyyətli olması, cümhuriyyətçilik ideyaları, hərbi sənaye, maliyyə-bank sistemi, oturuşmuş demokratik quruluşu, azad, sərbəst seçki sistemi, nəhayət Böyük İyirmiliyin üzvü olmasını Türkiyə türkcəsini bütün türklərin rəsmi dili kimi qəbul etməsi üçün əsas, və bunu Türkiyənin HAQQI kimi irəli sürür. Müəllif bunlara əlavə olaraq 15 milyondan artıq əhalisi olan İstanbulun 150 ildən çox türk dilində danışanların baş kəndinə çevrilməsni, dünyanın müxtəlif ölkələrindən gələn gənclərin bir-birilə sərbəst ünsiyyət qurduğuna şahidlik edir.

Bu günə mövcud olan müstəqil türk dövlətləri arasında Türkiyənin müəllifin sadaladığı xüsusiyyətlərinin olduğu həqiqətdir. Lakin bunların heç biri Türkiyə türkcəsinin dünya Türklərinin, nə də TDT-ın vahid dili olaraq qəbul edilməli olduğuna əsas vermir. Türkiyənin 85 milyon türk əhalisi, 789,562 km2 ərazisi varsa, Azərbaycanın 10 milyon əhalisi, 86,000 km2 ərazisi, Qırğızıstanın 6 milyondan çox əhalisi və 199.951 km2 ərazisi, Türkmənistanın 6 milyon əhalisi, 491.210 km2 ərazisi, Özbəkistanın 34 milyon əhalisi, 447,400 km2 ərazisi, Qazaxıstanın 2.724.90 km2 ərazisi, 19 milyon əhalisi olmaqla, ancaq bu beş müstəqil türk dövlətinin ümumilikdə 75 milyon əhalisi, 3.949.461 km2 ərazisi mövcuddur. Bundan başqa, Rusiyda 70 milyon, Iran adlanan Qacar yurdunda 62,2 milyon türkdən əlavə, Çində, İraqda, Suriyada, Hindistanda və s. onlarla milyon türk mövcuddur. Bunlar bütövlükdə 350 milyon civarında türk deməkdir. Hər türk toplumu ərazisində də çoxlu sayda Türkiyə türkcəsində olmayan xas türk sözləri var. Türkiyə türkcəsində isə, başqa türk dili dialektlərində olduğu kimi, xeyli sayda ərəb, fars, rus, incilis, fransız və s. dillərdən türk dilinə min ildən çox bir dövrdə, məqsədli şəkildə bütün türk dialektlərinə yeridilmiş yad millətlərə məxsus olan sözlər var.

"Assimilyasiya" anlayışı bir insanın dilinin başqa dillə əvəzlənməsidir. Yəni bu zaman insan bir milli mənlikdən, milli mövcudluqdan başqa milli mənliyə transfer edilmiş olur. Hər hansı bir millətin dilində nə qədər yad milli sözlər varsa, həmin millətin nümayəndələri öz dilində olan yad sözlər nisbətində assimilyasiya edilmiş durumda olur. Bu baxımdan, bütün 28 türk dialektinin hamısı bir qədər aşağı-yuxarı, qismən assimilyasiya edilmiş durumdadır.

1936-cı ildə Kremlin göstərişi ilə Azərbaycan ədəbi dili yaradılıb, tətbiq edildikdən bu günə qədər təkcə Azərbaycanda ən azı yüzlərlə xas türk sözləri bu ədəbi dilə daxil edilməyərək, kənarda qalıb. Nəticədə dövriyyədən çıxıb, yaddaşlardan silinərək unudulub. Bu üsulla süni olaraq kasadlaşdırılan Azərbaycan türkcəsinə yad sözlər daxil edilməklə, həmin dərəcə özünün türk mənliyinə yadlaşdırılıb.

Hazırda müstəqil olan digər dörd türk respublikası, xüsusilə müstəqil olmayan çoxsaylı türk toplumlarında bu vəziyyət dəfələrlə ağır durumdadır. Əgər onların hamısında olan xalis türk sözləri bir yerə toplanıb, Türkiyə türkcəsində olan xalis türk sözləri də əlavə olunmaqla, ümumtürk ədəbi dili yaradılarsa, bu dil həm söz fondu, həm ifadə tərzi və s. baxımından bu günkü Türkiyə türkcəsindən ən azı üç dəfə zəngin dil olmuş olar.

Hacı Nərimanoğlu Türkiyə türkcəsində 122,423 söz, Azərbayan türkcəsində isə 90.400 söz olduğunu göstərməklə Türkiyə türkcəsinin daha zəngin söz fonduna və fikrin ifadə imkanına malik olduğunu deyir. Bəs Azərbaycan və bütün digər türk dialektlərində olub, Türkiyə türkcəsində olmayan sözləri, eləcə də 1936-cı ildə Kremlin göstərişi ilə Azərbaycan, Özbək, Türkmən, Qazax, Qırğız ədəbi dilləri yaradılarkən bu dilləri yolub, "keçəl qaza" döndərərkən, onlarda olub, ədəbi dillərə salınmayan və Türkiyə türkcəsində olmayan on minlərlə xalis türk sözlərini əbədi itirib, onların yerini yad sözlərlə dolduraqmı?

*(Ardı var)*

**Şapur QASİMİ**



Mən az qala unutmuşdum ki, şair Vahid Əzizin... yaşı gəlir bizə tərəf. Bu qənaəti o cür saymasın oxucu ki, laqeydliyimdir, yaxud zamanın gərdişinin diqtəsidir, əsla! O qənaətdir: Vahidlə gənclik dostu, yaradıcılığının daimi izləyicisi, ən kövrək çağlarımın həmsöhbət adamı kimi haqqım çatır. Və bir də mənim nəzərimdə Vahid Əziz ilk tanışlıq ilimin (1969) görünüşündədir, elə dəyişməmişdir. O, heç vaxt mənim üçün dəyişməyəcək, poeziyası qədər ucada dayanacaq, baxmayaraq yaşca ondan üç - dörd il böyüyəm. Bu sözlərimi məqaləmin fabulası hesab edin. Çün, Vahid Əziz şeiri ilahinin payıdır və unutmayaq ki, Vahid Əziz səviyyəsində elə də çox şairimiz yoxdur.



# Xalq Şairi Vahid Əziz poeziyası haqqında bir neçə söz

## ("Tanıdığım şairlər" silsiləsindən)



**Allahverdi Eminov**

*(Əvvəli ötən sayımızda)*

**Poeziyamız da dünya poetik standartlara inteqrasiya olmaqla (bunu ifratlaşdırmaq milli şeirə xəyanətdir), poetik idealı özü üçün mütləqləşdirir, xəlqi poeziyaya sadiqləşir və mənəvi - sosial ahəngin - harmoniyanın bədii inikasına çalışır, şeirin təbii qanunlarından kənara çıxmır. Buna o mənada ehtiyac qalmır ki, şairin fikir təzəliyi, obraz yeniliyi, lirik ovqatı, tərənnüm xırdalıqları ondan qaçmır.**

İnsan amili Vahid Əzizin poeziyasında hər mərhələdə boy atır, amma şeir tənqidçilərimiz tərəfindən yada düşmür. Bu subyektivlik heç vədə onu kədərləndirmir, qısqanclıq hissi doğurmur. Vahidi yaxından başa düşən bir adam kimi, onun psixoloji üstünlüyü ondadır, poeziyasına arxayınçılığı güclüdür. Elə ovqat qarşısına çıxıb, 3-5 il əslində şeir yazmamışdır. Lakin söhbətlərimdə hiss etmişəm ki, poetik informasiyalar doğulur, yaxşı mənada metaztas verir, bədii təxəyyülünü əsarətinə alır. Sanki onu məhkəməyə çəkir və hansı cəzanı verəcəyini xatırladır. Proqnozum özünü doğruldur və il ərzində onlarla dəyərli şeirlər işıq üzü görür. Qənaətimə statistik yanaşma kimi baxmağa ehtiyac yoxdur, cəmiyyətimizdə insana verilən qiymətin dəyəri və dəyərsizliyi, öz məhvərindən çıxması, mistik xoşbəxtliyin fetişdirilməsi və sair proseslərə fəal bədii münasibəti qabarıqdır. Və bütövlükdə mənəvi - psixoloji davranış stixiyası Vətən məfhumunu bütöv şəkildə görmək arzusunu ifadə edir:

***Səni atmaq olmur, nə dərdsən, Vətən?***
***Şahların, ya özün namərdsən, Vətən?***
***Sən də mənim kimi sevirsən, Vətən!***
***Nifrətin sevdalı, ərkim davalı.***

Mən hansısa yazımda işlətdiyim (təkrar başa düşülməsin) - hansısa mənbəyə istinadən dediyim formuləni xatırlamalı oldum: fərdi taleləri inkar edən kosmik harmoniya qənaətbəxş deyil - rasional fikrin sərhəddini pozan bədii obrazlı poetik deyim, tərənnüm çaları insan qismətinin xoşbəxt dəyərinin itirilməsini özündə ehtiva eləyən estetik ümumiləşdirməyə zəmanət verir. Vahid Əziz yaşadığı əzabları, haqsızlıqların ağrısını içərisində boğmağı bacarmadığı üçün şeirin predmetinə çevirir və belə halda yüngülləşir. Sanki haydırır, səsinin tonunu saxlaya bilmir. "Dağ kəndinin faciəsi", "Xlor satıram", "Qeybdən dəvəlik buyrulub mənə" və s. şeirlərdə görünənlər ürəyə səssizcə toxunan və azca sonra məcrasına sığışmayan "sos"a bənzəyir.

***Min yol dedim, dağ kəndləri***
***dolmur, boşalır!***
***Bu nisgili Bəxtiyar da, nəbi də görüb.***
***Dağ kəndində neçə qulaq,***
***neçə baş qalır?***
***"Ağ saray"dan görən varsa,***
***nə gündə görüb?***
***Və ya:***
***Hayıf bu milləti, dedi - bit basır,***
***Müxənnəslər sökür, yurdu küt basır.***
***İtin ayağını, - dedim, - it basır!***
***Dedi, - hər köpəyin qanı pis deyil...***

Vahid Əziz üzünü mənimə tutub fəryadların exosunda çapalayan səsləri eşidir. Və qəribə paradoks qarşısında qoyur oxucunu:

***Bu ölkədə şairlərin dişi qalmayıb,***
***Ona görə tariximiz dayaz yazılır.***
***Dağ kəndinin yaşamaqla işi qalmayıb,***
***Hamımızın məzarı dayaz qazılır***

Bu o paradoksdur - şairin poeziyasının poetikasını ekvatorla birləşdirir, həqiqətlərin "ölüm modelini" əyaniləşdirir. "Dövranın əlində zər qoşalaşdı", "İnana bilmirəm xalqım o xalqdı", "Babam köhnə kişilərdəndi" şeirlərində baxmayaraq başlıq ritorikaya çəkir oxucunu - insanın şəxsi taleyinin mənəviyyatını işıqlandırır, bədii faktlar şeirdən boylanır:

***İnsan öldü ortasınnan il qırıldı***
***Bir şikəstə oxuyurdum***
***Havalanıb zil qırıldı.***
***Yuva quran bir qaranquş***
***Qatdı Tanrının başını -***
***Xocalıda el qırıldı***

Bu fəlakətin ponaramı "Xocalı rekviyemi"ndədir.

***Bir qaçaq Şuşam var girəmmir evə,***
***Xarı bülbülümün boyunu sına.***
***Kandarla qıfılı dəyişdi kirvə,***
***Açar hansımızın kirvəsindədir?***

Vahid Əzizdə təsvirin ünvanı insan ağrılarının mənəvi duyumunda toxdayır və çox halda sənədli təsiri bağışlayır. Xüsusilə, Qarabağımızın əldən getməsi və bu oyunun şəxsi zövq və istirahət əhvalından çıxıb ümumi ağrıya - əzaba çevrilməsi disharmoniyasını canlandırır. Qarabağ hamımızın, o cümlədən, Vahid Əzizin də ümumi faciəsidir - qayıtmaq nikbinliyimizdə fantom Qarabağ adını xatırladır "Qızılquşla bayquşun hekayəti", "Qarabağın çağrılmamış bakirə bir qız", "Tənha söyüd" və s. şeirlərində real vəziyyət mövcudiyyətin fərdi ağrısından gəlmir, qeyri statistik harmoniyaya zəmanət verir. Ümumiyyətlə, şeir fantastik yuxunun söylənilməsidir, şairin bu ağır yuxudan ayılandan sonra içərisinin tam yüngülləşdiyi, amma canlı ruhun ağlayıb nifrət etdiyi hissdir.

"Ey cəllad, o kötüyə boynumu əymə", "Yaradanın hüzurunda yer olanda - qır" - ricəti təsdiqləyir ki, əgər bu məmləkətdə şairin gücü heç nəyə çatmırsa və onun səsi Xəzərin çirkli suyuna qarışıb neftə bulaşmış balıqlara yem olursa: şairlər bədbəxtmiş! Nə yaşayır ki "qənaəti - söz ilahisinin faciəsi bir ümidsizliklə qarşılaşır". "Bu qədər eşşək var bu məmləkətdə - şairlər Saraya piyada gələr" - əsl ittihamdır!

Poeziyada peyzaj - təbiət əsas mövzudur və bu ona görə doğmadır - yalnız fiziki mənzərə təsiri oyatmır, rəngbərəng əşyaların hətta canlı axının tərənnüm atributlarıdır, şair ovqatının əks - sədasıdır. Sözün əlvanlığı təsviretmə gücü ilə şairin duyumunu aktivləşdirir, oxucu zövqünə təminat verir. "Qışın təhqirini yarpaq götürmür, küsəyən balıqlar qarmaq götürmür", "Kəfən də bəyazdı deyə öldüyümə yanmayacağam", "Koldan bir bənövşə saçıma baxdı, qorxdu - elə bildi yenə qış gəlir", "Ovcumda başım ağırdı, neçə-neçə tel qaraldı", "Ruhumu şərabla darayan gözəl, indi hansı şeyin həvəsindəsən?", "Şairlər qaranquş kimidir - öldürən bədbəxt olacaq", "İfritə yuxular suya deyilir - mən də söylənirəm, suya yazmıram" - sonsuz poetik ifadələrin, fikir obrazlarının əxlaqi təmizlənməyə təminatlıdır.

Vahid Əzizin poeziyasında məhəbbət - sevgi motivləri kövrək misraların qanıdır, axıb gedir uzaqlara. Sevgi onu ilahiyə qovuşdurur, himn kimi səslənir və öncə xalq duyğularından bəhrələnir. "Hayıf", "Qurbanam", "Gülüm, bir xataydı, çıxdı əlimdən" və s. şeirlərində: "Arzuları, ağrıları bir yerə qoydum", "Ağrılarım arzuların gözünü tökdü" sevgi hisslərinin əks - sədasıdır, hamımızın xatirələrindən keçir.

***Ulduzlar düymə tək tökülür yerə,***
***Gecə yaxasını qurtarıb qaçar.***
***Təzədən alışmaq istəyənlərə -***
***Dünya o üzündən bir qapı açar.***
***Eləcə də:***
***At daşını, sınsın aynam,***
***Sənsiz viran olsun dünyam.***
***Mən taleylə oynayamam -***
***Fərağat dayanmayacağam***

Maraqlıdır. Vahid Əziz "ciddi" şeirlərndən sonra sanki ağrılarına həmdəm kimi lirikaya qayıdır, yeri gələndə mahnı mətnləri də yazır. Lakin onun sevgiyə layiq misraları oxucunu keçmişə aparır, nakam eşqin "kitabını" vərəqləyir. "Duman, məni qabaqlama", "Gələ...", "Gəldim məni sevəsən", "Qolum bir gözəlin belində kəmər" silsiləsində də şair qəlbinin ağappaq döyüntüsü var və o, adi bir yarpaq ömründən ehtizaza təslim olur. Belə hissin ondakı güclü təkanıdır ki, Vahid Əzizdə belə şeirlər alınır.

***Vahid Əziz qurban oldu bir gülə,***
***Bir özünə göz gəzdirdi, bir gülə.***
***Sinəsinə nə düzdürdü bir gülə -***
***Bir gülə ölə-ölə vurulan? -***

Əslində şairin məhəbbətli ürəyini söndürmək gücünə malik deyil. Bu sevgi Kainatın harmoniyasıdır, nizamı pozulmadan gəlir və şeirə dönür:

***Gözlərimin altında***
***Düşüb qalmış yuxunu***
***Gəldim sənə göstərəm.***
***Bir ömrün sonluğunu***
***Eşqin soyuqluğunu***
***Gözlərinə göstərəm -***

***Telimi - nəfəsinə, çiçəyi - kölgəsinə,***
***Dərdimin təzəsini köhnəsinə göstərəm.***

Vahid Əzizin poetikası elə sadə hərəkət anlayışından ibarət deyil, sosial və mənəvi prosesləri motivləşdirən çalarlar demonomluğa - sehrbazlığa çağırsın, çün, şairdə daxili müşahidə güclüdür, xüsusi fərdi istedada malikdir. Ona İlahidən gəlmə vergi bəxş edilib və poeziyasına xəyanət göstərmir. Vahid Əzizi tanıyanlar yaxşı bilir ki, o zor hesabına, şöhrət naminə şeir qələmə almır, onda yazır bu, zəruridir, daxili ehtiyacdan doğur. Onda yazır - yazılmalıdır.

Şair, yubileyinə qədər görüşərik.

# Hakim Şəhriyar Əliyevdən absurd qərardad

## "Elektron imza"lı iddia "imzalanmadığından" geri qaytarılıb

**İstehlakçı hüquqların məhkəmə müdafiəsinə məhkəmələrin özlərinin kobud qadağa qoymaları faktları yetərincədir. Ən çox sınanılan qadağa metodu ərazi aidiyyətinin pozulması bəhanəsidir. Məhkəmələr MPM-in 35-ci maddəsinin, yəni iddianın cavabdehin olduğu yerin məhkəməsinə verilməsi tələbinin pozulduğunu əsas tutub iddianı geri qaytarırlar. Gerçəkdə belə halda işin aidiyyatı məhkəməyə göndərilməsi qanunvericilikdə doğrulanması bir yana, axı istehlakçı hüquqlarının müdafiəsi ilə bağlı iddialarda məhkəməni seçmək iddiaçıya məxsusdur. MPM-in 36.9 və 36.13-cü maddələrində belə yazılıb. Di gəl, məhkəmə hakimiyyəti prosessual qanunvericiliyi qeyri- prosessual sövdələşmədən aşağıda tutur.**



"İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanunun 26-cı maddəsində yazılıb: "İstehlakçıların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarının müdafiəsini məhkəmə həyata keçirir. İstehlakçının tələblərini yerinə yetirməklə yanaşı, məhkəmə həmçinin ona dəymiş mənəvi (qeyri-əmlak) zərərin də ödənilməsini həll edir." Bu qanun, bu prosessual məcəllə, bu da məhkəmənin qeyri-prosessual yanaşma metodu! Hətta istehlakçı hüquqlarının kassasiya müdafiəsinə də qadağa qoyulub. Halbuki MPM-in 402-ci maddəsi belə işlərdə kassasiya şikayəti verilə bilməsini doğrulayır. Di gəl, kommunal, xidmət qurumunun qeyri-prosessual basqısı altında bir çox hakimlər 3-5 manatı yüksək hakim adından, andından üstün tuturlar. Rabitə, internet xidmətinin standarta uyğunsuzluğu, göstərilməyən xidmət adına şişirtmə haqq tələb edilməsi, istehlakçıların zorakı xidmətə məcbur edilərək xətlərinin kəsilməsi, balanslarının silinməsi adi hal alıb. Zorakı xidmətə baxın, xidmət qurumu qanunsuz, istehlakçıya əlverişli olmayan müqavilə şərti diqtə edir və razılaşmayanları, xidmətdən imtina edənləri cərimə ilə cəzalandırır. Halbuki "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanunun 14.2 maddəsinə görə, istehlakçını keyfiyyətsiz və ya ona lazım olmayan çeşiddə mal almağa və xidmət göstərilməsinə məcbur etmək QADAĞAN EDİLİR. 16-cı maddədə isə yazılıb: " Qanunvericilikdə nəzərdə tutulan hüquqlarla müqayisədə istehlakçının hüquqlarını MƏHDUDLAŞDIRAN müqavilə şərtləri ETİBARSIZ sayılır. İstehlakçının hüquqlarını məhdudlaşdıran müqavilə şərtlərinin tətbiqi nəticəsində istehlakçıya zərər dəyibsə, onlar təqsirkar şəxs tərəfindən tam həcmdə ödənilməlidir". Vurulan zərərin ödənilməsi görəvi uyğun dövlət icra hakimiyyəti qurumlarının- Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi , İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyinin üzərinə qoyulsa da, bu agentliklər susmağa, ən yaxşı halda, hüquqpozucu xidmət qurumlarının qanunsuz cavablarını təkrar etməklə məşğuldurlar.

Bəs məhkəmə? Vurğuladığımız kimi, məhkəmə çeşidli bəhanələrlə iddianı geri qaytarmaqla, vətəndaşın, istehlakçının məhkəmə müdafiəsi hüququna qadağa qoymaqla istehlakçı hüquqlarını "qoruyur". Mobil rabitə xidmətinin eyni gündə Qarabağ qazisinin istifadəsində olan dörd bağlı nömrəni zorakı xidmətə qoşub, toplam 90 manatı silməsi özbaşınalığından Xətai məhkəməsində qaldırılan iddianın "bəxtinə" də "geri qaytarılma" yazılıb". Hakim Şəhriyar Əliyev elektron kabinetdən "elektron imza" ilə imzalanmış iddianı imzalanmadığı "əsası" ilə geri qaytarıb. (?) Yəqin cavabdehin qeyri-prosessual sifarişi prosessual qanunvericilikdən, Konstitusiyadan elə səviyyədə üstün olub ki, məhkəmə elektron kabinetdən verilən sənədin "elektron imza" ilə imzalandığını "unudub". İndi Məhkəmə Hüquq Şurası bu "unutqanlığa" qiymət verməyə borcludur.

**Məğrur BƏDƏLSOY**



**Samir ORUCOV**

# Ustada nəzirə

*Həkim ürəyimi təftiş eylədi,*
*Dost, yarı yanımdan tərxis eylədi,*
*Sonda mərəzimi təşxiş eylədi:*
*Dərd u qəm bir qədər, zökəm bir qədər.*

*Sevmədim şəhərin ab-havasını,*
*Zəhərə oxşatdım lap havasını,*
*Gedib o dağların saf havasını*
*"Yanan ciyərimə çəkəm bir qədər".*

*Gedir zirvələrin yolu ətəkdən,*
*Arı əl çəkərmi baldan, pətəkdən?!*
*Töküb bu şəhərin daşın ətəkdən,*
*Dağlarda alaçıq tikəm bir qədər.*

*Ustada, pis şey yoxdur bu təklik kimi,*
*Axı, xoşbəxt edər de, bu təklik kimi?*
*Ovçudan yayınan bir kəklik kimi,*
*Xınalı daşlarda səkəm bir qədər.*

*Demə, harda çatar bu ömrün sonu,*
*Şıltaq oyna sən bu şıltaq oyunu,*
*Allah nə yazıbsa, yaşarsan onu,*
*Nə artıq yaşarsan, nə kəm bir qədər.*

*Sonranı yadına sal, daş atanda,*
*Atan gərək atsın sal, daş atanda,*
*Bir daşı Ələvsət Saldaş atanda,*
*Daş sözdən bir qala, dikəm bir qədər.*

# Güney Azərbaycanla bağlı yeni araşdırmalar toplusu nəşr olundu

Bu günlərdə "Yeni dünya düzəni və Güney Azərbaycan problemi" adlı elmi məqalələr toplusu yayınlanıb. Professor Vaqif Sultanlı və doktor İrəc İsmayılın hazırladığı, "Aveprint" nəşriyyatında yayınlanan kitabda Güney Azərbaycanın aktual problemlərinə həsr olunmuş müxtəlif məzmunlu araşdırmalar toplanmışdır.




Oxucuların mühakiməsinə verilən kitab Güney Azərbaycanla bağlı tarixi, siyasi-ideoloji və ədəbi-kulturoloji problemlərə aydınlıq gətirilməsi məqsədilə hazırlanmışdır. Burada bir tərəfdən tarixi-siyasi, qarşı tərəfdən ədəbi-kulturoloji səpkili araşdırmalara yer verilmiş, bu isə problemin hərtərəfli müstəvidə dəyərləndirilməsinə imkanlar açmışdır. Vaqif Sultanlı və İrəc İsmayılın kitaba yazdığı "Güney Azərbaycan problemi çağdaş düşüncə axarında" adlı öz sözdə problemin aktuallığına diqqət çəkilir: "Çox təəssüf ki, demokratik dünya uzun illərdən bəri şovinist İran fars rejiminin basqıları altında inləyən, hər cür insani hüquqlardan məhrum olan, dar ağacına sürüklənən, məhbəslərdə, sürgünlərdə ağır işgəncələrdən ölümə tərk edilən, qürbətdə can verən Güney Azərbaycan Türklərinin taleyinə hələ də səssiz qalmaqdadır. Dəqiq olmayan statikstik bilgilərə görə, İran bu gün dünyada edamların sayına görə ilk yerdə dayanan dövlətlər sırasındadır. Ölkədə narkotik alveri adı altında məhkum edilən, dar ağacından asılan gənclərin böyük əksəriyyəti siyasi fəaliyyətlə məşğul olan şəxslərdir". "Ön söz"də daha sonra Güney Azərbaycan probleminin çözüm yolları ilə bağlı məsələlərə aydınlıq gətirilir: "Güney Azərbaycan probleminin həlli bölgə dövlətləri ilə bağlı əsrlərdən bəri həllini gözləyən bir sıra ortaq siyasi məsələlərin çözülməsinə imkan verəcəkdir. Başqa sözlə, Güney Azərbaycanın bağımsızlıq qazanması ilə yad güclərin əlilə parçalanmış vahid xalqın birləşərək gələcəkdə yaratmış olacağı Bütöv Azərbaycan dövləti bütünlükdə Şərqin taleyində həlledici rol oynacayacqdır".



Kitaba daxil edilən, mövzu-problem baxımından çeşidli olan, biri digərini tamamlayan məqalələr Azərbaycan araşdırıcıları ilə yanaşı, Türkiyə və Misir alimlərinin əsərlərini də əhatə etməkdədir.

**Hurriyyet.az**









# İşıqlı ömrün 75 illiyi

**Gözəl qələm əhli, jurnalist-publisist Həsənağa Əliyevin imzası oxuculara yaxşı tanışdır. O, Masallı rayonunda çıxan "Yeni həyat" qəzetinin məsul katibi vəzifəsində çalışır. Sanballı yazıları cəmiyyətin inkişafında mühüm rol oynayır. Bu günlərdə Masallı rayon Mərkəzi Kitabxanasında rayon Ağsaqqallar Şurasının təşəbbüsü ilə Həsənağa Əliyevin anadan olmasının 75 illiyi münasibətilə tədbir keçirilib.**

Rayon Ağsaqqallar Şurasının sədri Ələşrəf Niftiyev tədbirin açılışında təqdimat xarakterli çıxışında peşəkar və təcrübəli mətbuat xadimi Həsənağa Əliyevin xalqın ziyalısı obrazını və ali mənəvi keyfiyyətlərini özündə cəmləyən kamil şəxsiyyət olduğunu bildirib.

Daha sonra Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri vəzifəsini müvəqqəti icra edən Zamin Məmmədov Həsənağa Əliyevə Rayon İcra Hakimiyyəti başçısının təbrikini çatdırıb, rayonun ictimai-siyasi həyatında fəal iştirakı və 75 illik yubileyi münasibətilə RİH başçısı tərəfindən imzalanmış "Fəxri Fərman"ı ona təqdim edib. Həsənağa müəllimin 75-ci doğum günündə ona uzun ömür, cansağlığı və uğurlar arzulayan kitabxananın direktor əvəzi Zamin Məmmədov onu da vurğulayıb ki, biliklər xəzinəsində ziyalı və yaradıcı şəxslərlə görüşlərin təşkilinə bir qayda olaraq xüsusi önəm verilir. Belə tədbirlər xoş ənənə kimi bundan sonra da diqqət mərkəzində olar. "Yeni həyat" qəzetinin əməkdaşı Akif Ağayev uzun illər bir kollektivdə çalışdığı Həsənağa Əliyevin şəxsi həyatda və mətbuat sahəsində şərəfli ömür yolu keçdiyini qeyd edib: - Həsənağa müəllim gündəmin nəbzini tutan müxtəlif janrda məqalələri ilə jurnalistika sahəsində qabaqcıl imzalardan biridir. Halal sözün müqəddəsliyini uca tutmaqla ömrünün məhsuldar dövründə belə yüksək əzmlə çalışır, öz zəngin təcrübəsini gənc kadrlarla bölüşür.

Sonra Azərbaycan Jurnalistlər Birliyinin sədr müavini Şahin Babayev, "Tərəqqi" medallı Əyyub Mehdiyev, Masallı Ziyalıları İctimai Birliyinin sədri Qardaş Fətullayev, Əməkdar jurnalist Zakir Abbas, Mahmudavar kənd tam orta məktəbinin direktoru Xanım Əliyeva, "Yeni həyat" qəzetinin baş redaktoru Əlihüseyn Şükürov, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Masallı rayon Komitəsinin sədri Vəkil İsmayılov, rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Əntiqə Tağıyeva və digər natiqlər öz çıxışlarında uzun illər Həsənağa Əliyevin jurnalistika sahəsində göstərdiyi fədakar rolundan, rayonun ictimai həyatındakı fəal iştirakından danışıblar.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**